

# YAP Gənclər Birliyinin illik hesabat iclası keçirilib

4

Səs

№ 059 (6500) 7 aprel 2022-ci il. Qiymәti 60 qәpik

# Brüsseldə üçtərəfli görüş keçirilib

2



Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olub.

# Dövlətçilik tariximizin mərkəzi - Şuşa!

8




Azərbaycan xalqı tarix boyu öz torpaqlarında zəngin dövlətçilik ənənələri yaratmışdır. Dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan torpaqlarında dövlətçilik ənənələrinin təqribən 5 min illik tarixi var. Qarabağ xanlığının da Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri var.

## Rusiya mətbuatı: "Qarabağda nasizm əlaltısının abidəsi sökülməlidir"

*Təxminən bir aydan sonra bir çox postsovet ölkələri kimi Azərbaycanda da faşizm üzərində qələbənin növbəti ildönümü qeyd olunacaq. Lakin sirr deyil ki, bu gün Ermənistanla yanaşı, Qarabağdakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazidə - Xocavənd şəhərində Hitler nökəri Qaregin Njdenin abidəsi qalmaqdadır.*

13



Памятник Гарегину Нжде в Карабахе. Фото: minval.az

Азербайджан выступает совместно с Россией за снос памятника нацисту | Bigasia.ru

В Карабахе должен быть демонтирован памятник нацистскому пособнику.

## Müasir mətbuatımızın dəfn etdiyi publisistika

9



*Bəzən elə ürəyimdən keçir ki, qəzetləri səhifələyib yaxşı bir publisistik yazı oxuyam. Həmişə deyərəm ki, publisistik yazılar qəzetin istirahət yeridir.*

## Jurnalistlər güzəştli ipotekadan nə vaxt yararlanacaq?

6



Məlum olduğu kimi, bu ilin fevral ayında Baş nazir "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Prezidentin fərmanının icrasının təmin edilməsi haqqında sərəncam imzalayıb.

## "Bu futbolçuya 300 milyon dollar vermək dəlilikdir!"

16




*"Liverpul" "Borussiya"nın hücumçusu Erlinq Haalandı transfer etməyəcək. Qol.az xəbər verir ki, bu haqda klubun baş məşqçisi Yurgen Klopp məlumat verib.*

## Ramazan ayında hansı qidalardan uzaq durmalıyıq?



11



## Ermənistan üçün cavabı olmayan SUAL

6

*Dünyanın mənzərəsi sürətlə dəyişməkdədir və tezliklə yeni dünya düzəni ilə qarşılaşacağıq, hansıki bu mənzərədə, bu düzəndə Rusiya nəinki hesaba alınmaz ola bilər, hətta bu ölkənin tamamilə...*



## Rusiyalı professor: Bu vitamin qaraciyəri öldürür

10

Vitaminlərin nəzarətsiz qəbulu sağlamlığa nəinki fayda vermir, hətta çox ciddi ziyan vura bilir. Bunu tanınmış rusiyalı endokrinoloq professor Ekaterina Krivtsova Veçernaya Moskva nəşrinə müsahibəsində...

# Brüsseldə üçtərəfli görüş keçirilib





***Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə işçi nahar formasında görüşü olub.***



Brüsseldə işgüzar səfərdə olan Prezident İlham Əliyev həmçinin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə təkbətək görüş keçirib. Görüşdə dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirib və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə bu gün keçiriləcək üçtərəfli formatda görüşün nəticəyönümlü olacağına ümidvarlığını ifadə edib.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd edib. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirilib.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edildi və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olunub. Söhbət əsnasında qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən regional təhlükəsizliyə dair fikir mübadiləsi aparılıb.

# Misirli baş redaktor: "Prezident İlham Əliyev XXI əsr İslam tarixində xilaskar sərkərdə və müdrik dövlət xadimi kimi qalacaq"

***Torpaqlarını düşmən tapdağından qurtarmış və ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan Prezidenti İlham Əliyev XXI əsr İslam tarixində xilaskar sərkərdə və müdrik dövlət xadimi kimi qalacaq.***

Bu fikri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində bu yaxınlarda Qarabağa səfər etmiş Misirin "əl-Diplomasi" portalının baş redaktoru Əşrəf Əbu Arafə söyləyib. İşğaldan azad olunmuş ərazilərə səfəri ilə bağlı təəssüratlarını bölüşən jurnalist deyib: "Ərəb ölkələrinin jurnalistlərindən ibarət qrupun tərkibində Füzuli, Ağdam və Qafqazın incisi Şuşada olduq. Füzulu Beynəlxalq Hava Limanı, yeni infrastruktur obyektlərinin inşasını öz gözlərimizlə gördük. Quruculuq işlərinin miqyası Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Biz, həmçinin işğaldan azad olunmuş torpaqlarda ermənilərin məhv etdiyi qədim abidələrin, o cümlədən İslam məbədlərinin bərpasının şahidi olduq. Ərazi bütövlüyünü öz gücü ilə bərpa etmiş Azərbaycan, həm də öz resursları hesabına bütün bu bərpa-quruculuq işlərini uğurla davam etdirir. Əlbəttə, bu uğurlar xalqının böyük etimadını qazanmış, dünyada nüfuzlu siyasətçi kimi tanınan Prezident İlham Əliyevin müdrik rəhbərliyi nəticəsində mümkün olub".



Rəhbərlik etdiyi portalın və ərəb ölkələrinin mediasının Azərbaycanın haqq işini ictimaiyyətə çatdırmasından bəhs edən Ə.Əbu Arafə qeyd edib: "Bakıda faydalı görüşlərimiz oldu. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bizi qəbul etdi və olduqca faydalı tövsiyələr verdi. Prezidentin köməkçisi diplomat kimi vaxtilə Misirdə fəaliyyət göstərdiyi üçün ərəb dünyasına və mediasına yaxşı bələddir. Biz onunla apardığımız müzakirə zamanı Azərbaycan və ərəb ölkələri jurnalistlərinin əməkdaşlığının perspektivlərini müzakirə etdik.

Bizim üçün daha bir faydalı görüş AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanovla oldu. Bu, mənim Azərbaycanın rəsmi dövlət agentliyində ikinci görüşüm idi. İllər öncə Misir jurnalistlərinin nümayəndə heyətinin tərkibində də AZƏRTAC-da olmuşdum və bu dəfə yeni, ən müasir standartlara cavab verən binada keçirilən görüş məndə böyük təəssürat yaratdı. Mən İdarə Heyətinin sədrinin diqqətinə çatdırdım ki, "əl-Diplomasi" portalı istər 44 günlük müharibə, istərsə də işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri haqqında AZƏRTAC-ın ərəb və ingilis dillərində olan materiallarını mütəmadi olaraq yayımlayıb. Əlbəttə, bizim üçün mühüm olan etibarlı mənbədən alınmış xəbərləri Misir ictimaiyyətinə çatdırmaqdır. Bunun ən doğru yolu rəsmi agentliyin informasiyalarından istifadə etməkdir".

Misirli baş redaktor əlavə edib: "Bakıda Hərbi Qənimətlər Parkında da olduq və burada nümayiş etdirilən eksponatlar Azərbaycan Ordusunun qüdrətinin təzahürüdür. Mən bununla bağlı yazdığım məqalədə qeyd etmişəm ki, Ermənistan silahlı qüvvələrinin texnika və silah-sursat sarıdan itkiləri regional miqyasda aparılan hərbi əməliyyatlar üçün çox böyükdür. Darmadağın olmuş və kapitulyasiya aktı imzalamış Ermənistan bütün bunlardan nəticə çıxarmalıdır. Ermənilər dərk etməlidir ki, güclü iqtisadiyyata, qüdrətli orduya malik olan Azərbaycan və Türkiyə ilə dinc yanaşı yaşamaq onların yeganə xilas yoludur. Təcavüzkar siyasət isə Ermənistanın bir dövlət kimi varlığını təhlükə altında qoyacaq".

Ə.Əbu Arafə sonda deyib: "Prezident İlham Əliyev bu ili "Şuşa İli" elan edib, həmçinin bu qədim və gözəl şəhər "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib. Rəhbərlik etdiyimi portalda və digər ərəb media orqanlarında bununla bağlı tədbirləri ictimaiyyətə çatdıracağam. Qoy bütün ərəb dünyası bir daha əmin olsun ki, azərbaycanlılar sülhsevər, qurub-yaradan xalqdır.

# Prezidentin uğurlu strategiyasına

## VƏTƏNDAŞLARIN BAXIŞI - SORĞU



*İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76.8 faiz səsini toplayaraq Azərbaycan Respublikasının Prezidenti seçilib. Müasir tariximizə möhtəşəm 19 il kimi yazılan bu dövrdə Azərbaycan misilsiz inkişaf yolu keçib. Xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dinamik inkişaf yoluna çıxarıb, ölkəmizin beynəlxalq miqyasda mövqelərini daha da möhkəmləndirib. Bəs gəlin görək, şəhər sakinləri Prezidentin fəaliyyətini necə dəyərləndirir? SİA bu mövzu ilə bağlı sorğu keçirib.*





**Şəhər sakini Səriyyə Əliyeva:** ”Mən də daxil olmaqla bütün xalqımızın İlham Əliyevin prezidentliyindən razı olduğunu düşünürəm. Cənab Prezident daim xalqımızın rifahı üçün çalışır. İnanıram ki, bu dövr ərzində də bu istəyinə nail olub”.

**Şəhər sakini Gülhüseyn Kazımov:** ”İlham Əliyevin prezidentlik dövrünü dəyərləndirdiyimiz vaxt İkinci Qarabağ Müharibəsini yada salmaq kifayətdir. Prezidentin səyi nəticəsində azad olunan torpaqlarda böyük quruculuq işləri gedir. Xalqımız öz doğma yurduna qayıtmaq imkanı əldə edib. İnanıram ki, tək mən deyil, bütün Azərbaycan xalqı İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirir”.



**Şəhər sakini Sevda Abbasova:** ”İlham Əliyev bizə Qarabağı geri qaytardı. Onun və şanlı ordumuzun sayəsində Qarabağ adlı qanayan yaramız sağaldı. Bundan ötə heç nə ola bilməz. Necə ki, İlham Əliyev bizim yanımızdadır, eləcə də xalq hər zaman Onun dəstəkçisidir”.



**Şəhər sakini Emil Mahmudov:** ”Bu 4 ildə uğurlarımız bol olub. İlham Əliyevin başçılığı ilə 30 il düşmən tapdağı altında olan torpaqlarımız nəhayət ki, azad olundu. Qarabağ həsrətimiz bitdi. Eyni zamanda, bu dövr ərzində Azərbaycan xarici siyasətdə də bir çox uğurlar əldə edib”.



**Şəhər sakini Zemfira Qarabağlı:** ”Ötən illər ərzində ölkəmizdə bəzi insanlar tərəfindən narazılıqlar, ədalətsizliklər olsa belə, cənab İlham Əliyev öz prezidentlik dövründə Azərbaycanı uğurlu şəkildə idarə etməyi bacarıb. Onun sayəsində biz xalqımızın birliyini gördük. Mən heç bir şübhə duymadan hər zaman İlham Əliyevi dövlətimizin başında görmək istəyirəm. Ümid edirəm ki, son iki-üç ildə xalqımız necə bir yumruq oldusa, o cür də davam edər”.



**Şəhər sakini Şamil Şamilov:** ”İlk öncə qeyd etməliyik ki, 44 günlük müharibə bir daha bütün dünyada Azərbaycan dövlətini tanıtdı. Bu hadisədə Prezident İlham Əliyevin müqayisəolunmaz dərəcədə rolu olub. Ali Baş Komandan kimi İlham Əliyevin ordumuzla birgə uğuru xalqımız tərəfindən yüksək səviyyədə qiymətləndirilir. Eyni zamanda, Prezidentin islahatları, sərəncamları dövlətimizin inkişafı üçün böyük əhəmiyyət daşıyır”.

***Ləman Əlizadə***

### ”TRT Haber”: Azərbaycan Prezidenti ilk yaşayış məskəninin qurulması üçün Ağdamı seçdi







Türkiyənin nüfuzlu ”TRT Haber” telekanalı işğaldan azad edilən Qarabağda həyata keçirilən quruculuq və yenidənqurma işləri ilə bağlı xüsusi reportaj yayıb. AZƏRTAC xəbər verir ki, reportajda təcavüzkar Ermənistan tərəfindən torpaqlarımızın bir hissəsinin otuz il işğalda saxlanılması, zəbt edilən ərazilərdə həyata keçirilən vandalizmdən bəhs olunub. Diqqətə çatdırılıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində əzəmətli Zəfər qazanaraq ərazilərini düşməndən qurtarıb, ərazi bütövlüyünü bərpa edib.

Reportajda, həmçinin Azərbaycan-Türkiyə qardaşlıq əlaqələri ilə bağlı mühüm məqamlara toxunulub. Tamaşaçılara məlumat verilib ki, Qarabağda böyük bir qətiyyətlə yeni və müasir infrastruktur qurulur.

”Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan ərazilərdə ilk yaşayış məskəninin qurulması üçün Ağdamı seçdi. Düşmənin yerlə- yeksan etdiyi Ağdam ”ağıllı şəhər” kimi yenidən qurulur. Yeni hava limanları və avtomagistrallar Azərbaycanın imkanlarını daha da genişləndirəcək”, - deyə reportajda qeyd olunub.

# YAP Gənclər Birliyinin illik hesabat iclası keçirilib







**_Aprelin 6-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin illik hesabat iclası keçirilib. İclasda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iştirak edib._**

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov təşkilatın 11.03.2021-11.03.2022-ci il ərzində fəaliyyətinə dair hesabatı təqdim edib. B.İslamov bildirib ki, Partiyanın VII Qurultayında qəbul olunmuş yeni Nizamnaməyə əsasən YAP Gənclər Birliyi yenidən formalaşdırılıb. Onun sözlərinə görə, ötən bir il ərzində birlik üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Diqqətə çatdırılıb ki, hesabat dövründə YAP Gənclər Birliyinin altı iclası keçirilib, 80-dən çox tədbir və layihə reallaşdırılıb, region gəncləri ilə görüşlər keçirilib. Eyni zamanda, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə "Davamlı İnkişaf Məktəbi" layihəsi, 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunması ilə əlaqədar Ümumrespublika Xəmsə Festivalı, "Viki Klub" layihəsi keçirilən tədbirlər sırasındadır. Bundan əlavə, 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Prezidenti cənab İlham Əliyevin gənclərlə keçirdiyi görüşdə YAP Gənclər Birliyinin üzvləri də iştirak edib. Hesabat dövründə 44 günlük Vətən müharibəsinə, Azərbaycan həqiqətlərinin və Ermənistanın xalqımıza qarşı törətdiyi cinayətlərin dünya ictimaiyyətinə çatdırılması işinə həsr olunmuş tədbirlər də reallaşdırılıb, bu yöndə sosial şəbəkələrdə fəal iş aparılıb.

YAP Gənclər Birliyinin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən B.İslamov hesabat dövründə Türkiyə, Qazaxıstan və Ukraynaya baş tutuş səfərlər haqqında da məlumat verib. O, birliyin fəaliyyətində Heydər Əliyev ideyalarının və Prezidentimiz cənab İlham Əliyevin siyasətinin təbliğ olunmasının əsas yer tutduğunu diqqətə çatdırıb. B.İslamov göstərilən dəstəyə



görə partiya rəhbərliyinə təşəkkürünü bildirib.

İclasda daha sonra YAP Gənclər Birliyinin üzvü, Milli Məclisin deputatı Cəbi Quliyev, üzvləri Ülviyyə Axundova, Nihad Allahyarlı və YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva çıxış edərək fikir və təkliflərini bildiriblər.







İclasda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov hesabat dövründə partiyanın Gənclər Birliyinin geniş və əhatəli tədbirlər həyata keçirdiyini vurğulayıb. Azərbaycan gənclərinin intellektual potensiala sahib olduğunu deyən Tahir Budaqovun sözlərinə görə, YAP Gənclər Birliyi də məhz bu amil əsasında formalaşdırılıb. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada söz sahibi olan dövlətə çevrilib, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan, YAP qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Bu prosesdə partiyamızın gəncləri də fəal iştirak etməlidir.

Azərbaycanda uğurlu dövlət gənclər siyasətinin həyata keçirildiyini deyən YAP Sədrinin müavini ölkəmizdə gəncliyin inkişafı üçün bütün imkanların yaradıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, YAP-ın gəncləri bundan sonra da Heydər Əliyev irsinin dərindən öyrənilməsi və təbliği, Prezidentimizin siyasətinin fəal təbliğatı, milli maraqlarımızın, milli mənəvi dəyərlərimizin qorunması, vətənpərvərlik hisslərinin aşılanması işində, ölkəmizə qarşı yönəlmiş kampaniyalarla mübarizə çərçivəsində sosial şəbəkələrdə fəallığını daha da gücləndirməlidirlər. Qeyd olunub ki, bu il Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 ili tamam olur, eləcə də ölkəmizdə "Şuşa İli" elan edilib. Bu əlamətdar hadisələrlə bağlı YAP Gənclər Birliyi yeni təşəbbüslərlə çıxış etməlidir.

İclasda önəmli təkliflərin irəli sürüldüyünü deyən Tahir Budaqov bildirib ki, YAP Gənclər Birliyinin üzvləri partiya rəhbərliyinin etimadını doğrultmaq üçün fəaliyyətlərini daha da gücləndirməlidirlər. YAP Mərkəzi Aparatının rəhbəri qarşıda dayanan vəzifələrlə bağlı gənclərə tövsiyə və tapşırıqlarını verib.



# “Şuşa İli” - Azadlıqdan Böyük Qayıdışa doğru

## *Bu, Qalib Liderin "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözü ilə əməlinin üst-üstə düşməsinin reallığıdır*

***2003-cü il oktyabrın 1-də prezident seçkilərində öz namizədliyini geri götürdüyünü bildirən Ulu Öndər Heydər Əliyev xalqımızı Cənab İlham Əliyevi dəstəkləməyə çağırdı. O, həm Cənab İlham Əliyevin, həm də Yeni Azərbaycan Partiyasının bundan sonra da Azərbaycan dövlətinin inkişafı və xalqımızın rifahı yolunda böyük işlər görəcəyinə inanırdı.***

Və bu inamın nəticəsi idi ki, prezident seçkilərində Azərbaycan xalqı öz səsini ulu öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına verdi. Məhz həmin vaxtdan ötən müddət ərzində Ümummilli Liderin ”Mən ona özüm qədər inanıram” sözlərini əməlləri ilə təsdiq edən Prezident İlham Əliyev Azərbaycanda yeni bir dövrün, eranın başlanğıcının əsasını qoydu. Fəaliyyətinin ilk illərindən ölkədə dayanıqlı iqtisadiyyatın qurulması, əhalinin rifah halının yüksəldilməsi ilə yanaşı, Prezident İlham Əliyev tərəfindən müstəqillik və azərbaycançılıq ideologiyasının daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Aparılan uğurlu siyasət nəticəsində ölkədə sosial-iqtisadi vəziyyət xeyli yaxşılaşdı, multikultural ənənələrə və milli-mənəvi dəyərlərə söykənən bir cəmiyyətin formalaşması təmin edildi. Eyni zamanda, dünyada enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın artan rolu, ölkənin yeni imkanları beynəlxalq əməkdaşlığı kifayət qədər gücləndirdi, İlham Əliyevin ”neft kapitalını insan kapitalına çevirək” şüarı Azərbaycanın gələcək inkişafını təmin etdi. Bu baxımdan, təsadüfi deyil ki, bu gün regionda reallaşdırılan bütün beynəlxalq, iri-miqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

”Sağlam cəmiyyət güclü dövlət deməkdir” prinsipi ilə həyata keçirilən dövlət siyasəti artıq öz bəhrələrini verib. COVID-19 virusu dünya ölkələrini çətin vəziyyətə salanda Azərbaycan dövləti vətəndaşlarını müvəffəqiyyətlə qorumağı bacardı. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları da Azərbaycanın qlobal pandemiya dövründə özünü nümunəvi ölkə kimi təsdiqlədiyini etiraf etdilər.Prezident İlham Əliyevin Vətən və xalq qarşısında ən böyük xidmətlərindən biri də qüdrətli və müzəffər Ordunun yaranmasıdır. Müzəffər Ali Baş Komandan, böyük sərkərdə İlham Əliyevin 18 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, ”Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur” deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev ”Şuşasız işimiz yarımçıq qalar” deyərək reallaşdırdı. Və...

### ZƏFƏRİMİZİN TARİXİ TƏNTƏNƏSİDİR ”ŞUŞA İLİ”

Və bu gün Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci ilin ”Şuşa İli” elan edilməsi haqqında Sərəncamı xalqına, torpağına, Vətəninə olan sonsuz sevgisinin təcəssümü, Azərbaycanın hərb meydanı ilə yanaşı, diplomatiya müstəvisində də qələbəsinin təsdiqi və dünyaya təqdimatı, Zəfərimizin tarixi təntənəsidir. Ən əsası isə, Şuşanın tarixi kimliyini bir daha özünə qaytarılması, ”Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur” deyən dahi Heydər Əliyevin bu arzusunun u gün Prezident İlham Əliyev ”Şuşasız işimiz yarımçıq qalar” deyərək reallaşdırılmasıdır. Bu ”Dəmir yumruq” gücündən - Qarabağımızın, Şuşamızın dirçəlişinin reallaşdırılmasıdır. Bu, Qarabağın əsl sahibinin kim olduğunu dünyaya daha geniş şəkildə təqdim edilməsidir. Bu Qalib Liderin qətiyyətinin və uzaqgörənliyinin, ”Əziz Şuşa, biz səni dirçəldəcəyik!” sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır.

Artıq Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada ötən bir il ərzində şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilmişdir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Qısa müddətdə Cıdır düzündə ”Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərdi ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

### ”DƏMİR YUMRUQ” GÜCÜNDƏN - QARABAĞ DİRÇƏLİŞİNƏ DOĞRU

Bəli, 44 gün davam edən Vətən müharibəsinin 42-ci günündə - noyabrın 8-də azərbaycanlıların illərdir həsrətində olduğu Şuşa şəhəri işğaldan azad edildi və elə həmin gün Şuşada Azərbaycan bayrağı qaldırıldı. Və İkinci Qarabağ savaşını ”Dəmir yumruq”la qazanan Ali Baş Komandan İlham Əliyev ”dəmir iradə” ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.

Bir sözlə, bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Prezident İlham Əliyevin ”Şuşa ili” çağrışı qədim Şuşa şəhərinin işğaldan azad edildikdən sonra milli memarlıq ənənələri əsasında yenidən bərpa edilməsinə geniş meydan açacaqdır. Çünki Şuşa Azərbaycan üçün, sadəcə, bir şəhər deyil, xalqımızın maddi-mənəvi dəyərlərini özündə əks etdirən rəmz, əziz məkanıdır. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən şəhərin yenidən qurulması, abadlaşdırılması diqqət mərkəzində saxlanıldı. Yolların, tarixi abidələrin bərpasına, şəhərin su, elektrik təchizatının qaydaya salınmasına xüsusi önəm verildi. Bu, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə dəfələrlə etdikləri səfərlər zamanı bir daha öz təsdiqini tapdı.

Bütün bunlar onu sübut edir ki, ”Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun Prezident İlham Əliyev hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparmağa nail oldu və bu müddət ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur.



Bir sözlə, belə bir qısa vaxtda gerçəkləşdirilən və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli.

***RƏFİQƏ KAMALQIZI***

# Ermənistan üçün cavabı olmayan SUAL

Təhlil

***Dünyanın mənzərəsi sürətlə dəyişməkdədir və tezliklə yeni dünya düzəni ilə qarşılaşacağıq, hansı ki, bu mənzərədə, bu düzəndə Rusiya nəinki hesaba alınmaz ola bilər, hətta bu ölkənin tamamilə bataqlığa qərq olacağı ehtimalı da var. Rusiyanın bataqlığa doğru getdiyi müzakirə mövzusu deyil, məsələ burasındadır və müzakirə mövzusu odur ki, bataqlıq astanasında olan Rusiyanın Ermənistanı da özü ilə bərabər eyni yerə çəkməsi riski həddindən artıq böyükdür, çünki Ermənistan batmaqda olan Rusiyanın şərikləri siyahısında ən başda dayanır.***



Qeyd edək ki, Nebenzinin çıxışından bir neçə saat əvvəl "The New York Times" qəzeti Buçanın peyk vasitəsi ilə çəkilən şəkillərini yayımlayıb, hansıki bunlar təhlil edilərkən, araşdırılarkən belə nəticəyə gəlmək olar ki, həmin şəhər Rusiya hərbçiləri tərəfindən idarə olunarkən küçələrdəki cəsədlər hələ də orada olub. Onu da nəzərə çatdıraq ki, həmin o Rusiya hərbçiləri arasında ermənilərin olduğu da artıq hər kəsə bəllidir və ukraynalılar tərəfindən əsir götürülən hərbçilər arasında ermənilərin də olduğu dəfələrlə öz təsdiqini tapıb. Ən başlıcası, əsası isə odur ki, dünyanın müxtəlif ölkələrindən olan çoxlu sayda jurnalistlər indi hər şeyi öz gözləri ilə görə bilirlər və qəbul edirlər ki, bu məsələdə ermənilərin də "payı" var. Deməli, bu, Rusiya və onun şərikləri, xüsusən ermənilər üçün heç də arzuolunan deyil. Əksinə, reallıqları bütün dünyanın görməsi çox pis nəticələr vəd edir və bu nəticələr özünü çox gözlətməyəcək. Xüsusilə, Rusiyanın BMT-dəki nümayəndəsi Vasili Nebenzinin, "Ukraynanın Buça şəhərində onlarla mülki şəxsin öldürülməsi Rusiya ordusunu nüfuzdan salmaq və Rusiyaya siyasi təzyiq göstərmək məqsədi daşıyan növbəti hazırlanmış təxribatdır, hansıki bu təxribatın arxasında Kiyev hakimiyyəti və "onların Qərb sponsorları" dayanır", deməsi bütün dünyanı daha da qəzəbləndirə bilər. Bu qəzəb isə təkcə rusların deyil, tezliklə elə ermənilərin də başının bəlasına çevriləcək.

"Buçadakı mənzərələr hamımızı heyrətə gətirir və müharibə cinayətlərinin baş verdiyi aydın şəkildə görünür", deyən Böyük Britaniyanın xarici işlər naziri Liz Trass, "Rusiya BMT-nin İnsan Haqları Şurası üzvlüyündən çıxarılmalıdır", deyə bildirib. Böyük Britaniyanın XİN rəhbəri Beynəlxalq Cinayət Məhkəməsində ədalətin bərqərar olmasının vacibliyini qeyd edib və bunun Londonun istəyi olduğunu da bəyan edib. Sözsüz ki, Beynəlxalq Cinayət Məhkəməsində ədalətin bərqərar olması zamanı təkcə Rusiyanın deyil, şəriklərinin, xüsusən Ermənistanın da mühakimə olunacağı şübhə doğurmur və bir halda ki, ermənilər təcavüzkarın, işğalçının yanında olublar, deməli onların da "payı" var. Nəzərə çatdıraq ki, belə düşünən təkcə Trass deyil və artıq belə bir fikir çoxdan formalaşıb. Konkret olaraq formalaşan fikir ondan ibarətdir ki, Rusiyanın hərbi məğlubiyyətindən, rejimin tamamilə sıradan çıxarılmasından, Rusiyanın və şəriklərinin Beynəlxalq Cinayət Məhkəməsində cavab verməsindən başqa bəşəriyyətin özgə niyyəti yoxdur. Bəşəriyyət yaxın gələcəkdə tamamilə başqa, fərqli bir Rusiya barədə düşünür. Belə olan halda isə Rusiyaya güvənərək ərköyünlük edən Ermənistandan söhbət gedə bilməz, əksinə bu işğalçı dövlətə də zərbə dəyəcəyi gözlənilir.

Bütün dünya, xüsusən Qərb yer üzündə nüvə silahı ilə hədə-qorxu gələn orduya malik olmayan yeni, fərqli bir Rusiyanın yaranmasında maraqlıdır. Deməli, bu fikirdə olanlar normal qəbul edilirlər. Əksinə, ermənilərin timsalında buna qarşı çıxanlar, yaxud mane olanlar Rusiyanın şərikləri hesab olunurlar və bu artıq dəyişməz olaraq qalır. Bir sözlə, Ermənistan öz işğalçı mövqeyi, işğalçı ilə bir yerdə qərarlaşması, onun yanında olması ilə Rusiyanın şərikləri siyahısında sayılır və bu həmin ölkə üçün faciələr deməkdir. Nəticələrin ermənir üçün nə qədər açınacaqlı olacağı da şübhə doğura bilməz və artıq erməni cəmiyyəti buna görə səksəkə içərisindədir. Hətta erməni mətbuatı da bu barədə bar-bar bağırır və açıncaqlı real vəziyyətləri barədə cəmiyyətə həyəcan siqnalı da ötürür. Bu da səbəbsiz deyil. Diqqətə çatdıraq ki, ermənilərin daha çox güvəndikləri lobbilərinin, diasporalarının təşəkkül tapdığı bir dövlətin, ABŞ-ın məhz Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays növbəti brifinq zamanı bildirib ki, anti-Rusiya sanksiyalarından yan keçmək və ya Ukraynada xüsusi əməliyyat keçirməkdə Rusiyaya kömək etmək cəhdləri digər ölkələr üçün nəticəsiz qalmayacaq. Qısa və daha aydın şəkildə desək, Rusiyanın şəriklərini hədələyib və xəbərdar edib ki, bu şərikliklərinə görə aqibətləri yaxşı olmayacaq, nəticə onlar üçün çox ağır olacaq. Doğrudur, Ned Prays qeyd edib ki, konkret hansısa ölkədən söhbət getmir, amma ən azından bunun kimə aid olduğu bəllidir və bunu ermənilər daha yaxşı başa düşürlər, qorxuları da elə bu səbəbdəndir. Bəli, ABŞ hakimiyyəti açıq şəkildə bildirir, bəyan edir ki, dövlətlər Vaşinqton, onun müttəfiqləri və ya tərəfdaşlarının Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalardan yan keçməyə çalışsalar, bunun ağır nəticələri ilə üzləşəcəklər.

Maraqlıdır, ABŞ Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Praysın bütün bu fikirlərinin fonunda Rusiya hərbi əməliyyatını maliyyə və ya silahla dəstəkləmək cəhdi hansı ağır nəticələrə gətirib çıxara bilər? Əgər ABŞ sanksiyalardan sadəcə yan keçməyə çalışanları ağır nəticələr gözləyir deyə bəysan edirsə, o zaman Rusiya hərbi əməliyyatını maliyyə və ya silahla dəstəkləməyin nəticəsinin nə olacağını ermənilərin təsəvvür etmələri gərəkir. Yəqin ki, ermənilər bunu təsəvvür edirlər ki, yuxuları ərşə çəkilib. Erməniləri düşündürən bir sual var ki, indi onlar nə etməlidirlər? Bu sualın isə cavabı yoxdur, çünki artıq onlar etdiklərini ediblər. Bu zamana qədər ermənilər iblisə xas olan bütün əməllərə, işlərə əl atıb, bütün pisliklərə imza atıblar və bu gün də işğalçının yanındadırlar. Məhz ona görə də "nə etməlidirlər" sualı bütövlükdə Ermənistan üçün cavabı olmayan sual hesab olunur. Dünyanın Rusiyaya qarşı qəzəbinin fonunda onların şəriki sayılan ermənilər üçün bu cavabsız sual kifayət qədər böyük əzaba çevrilib, amma bu əzabla yaxalarını qurtaracaqları heç də inandırıcı deyil.

***İnam Hacıyev***

# Jurnalistlər güzəştli ipotekadan nə vaxt yararlanacaq?



Məlum olduğu kimi, bu ilin fevral ayında Baş nazir "Media haqqında" qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə Prezidentin fərmanının icrasının təmin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Media Reyestrinin aparılması qaydalarının layihəsinin, jurnalistlərə güzəştli ipotekanın verilməsi, həmçinin jurnalist vəsiqəsinin forması və dəyişdirilməsinə görə ödənişin məbləği ilə bağlı təkliflərin iki ay müddətində Nazirlər Kabinetinə təqdim edilməsi nəzərdə tutulurdu.

Mövzu ilə bağlı Medianın İnkişafı Agentliyinin Kommunikasiya şöbəsinin müdiri Səidə Şəfiyeva SİA-ya açıqlamasında bildirib ki, hazırda ilkin layihə müzakirə mərhələsindədir: "Media Reystrinin aparılması qaydalarının, həmçinin jurnalist vəsiqəsi və Media Reyestrinin şəhadətnaməsinin formasının ilkin layihəsi hazırlanmış və aidiyyəti qurumlarla işçi qaydada müzakirələr aparılmaqdadır. Bu proses yekunlaşdıqdan sonra təkliflər aidiyyəti üzrə təqdim ediləcək".

***Arzu Qurbanzadə***

# "Azərbaycan-Türkiyə münasibətləri bir nümunədir"



"Bugünkü gündə dövlətlər arasında etimadsızlıq mühiti formalaşıb. Bu reallıqda "Dövlətlərarası münasibətlər necə olmalıdır?" sualına cavab olaraq Azərbaycan-Türkiyə münasibətləri bir nümunədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Nəsirov deyib.

Onun sözlərinə görə, bu iki dövlət arasında müttəfiqlik münasibətləri mövcuddur? "15 İyun Bəyannaməsi ilə münasibətlər strateji tərəfdaşlıqdan, müttəfiqlik, o cümlədən hərbi müttəfiqlik səviyyəsinə yüksəlib. 44 günlük müharibədə Azərbaycanın qələbə çalmasında da Türkiyə dövlətinin siyasi və mənəvi dəstəyinin müstəsna rolu olub. Eyni zamanda, bu iki dövlətin dostluğu tarixi köklərdən də irəli gəlir. Azərbaycan və Türkiyə eyni dəyərləri paylaşaraq, həyata keçirdikləri siyasətlə indiki yüksək səviyyəli münasibətə nail olub".

Deputat sözlərinə belə davam edib: "Ermənistan-Azərbaycan münasibətlərində də həllini gözləyən məsələlər var ki, onların həllində Türkiyə dövləti hər zaman olduğu kimi Azərbaycanın yanındadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bir neçə gün öncə verdiyi müsahibəsində də Qarabağdan qeyri-qanuni erməni hərbi birləşmələrinin tamamilə çıxarılmasını bir daha vurğulayıb. Bu Türkiyə dövlətinin prinsipial və qətiyyətli mövqeyidir. Əks halda hadisələrin ən mürəkkəb ssenari üzrə davam etməsinin məsuliyyətini Ermənistan daşıyacaq. Cənab İlham Əliyev də Ermənistana xəbərdarlıq edib ki, biz sülh istəyirik, amma əgər bu sülh üçün təhlükə yaranarsa, təxribatçı hərəkətlərinə davam edərsə dəmir yumruğun yerində olduğunu unutmasınlar".

***Ayşən Vəli***

# YAP-ın təşkilatçılığı ilə şəhid ailələri və qazilər üçün tibbi aksiya keçirilib







***Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə YAP İdarə Heyətinin üzvü, akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun şöbə müdiri, professor Tofiq Cahangirovun rəhbərliyi ilə Saatlı rayonunda Şəhid ailələri və qazilər üçün tibbi müayinə aksiyası keçirilib. "Zəfər Azərbaycanındır" şüarı altında keçirilən aksiya iki gün davam edib.***

Aksiya iştirakçıları öncə Saatlı rayonunda ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə qızılgül dəstələri qoyublar. Sonra rayon mərkəzindəki Şəhidlər xiyabanı ziyarət edilib, 31 Mart soyqırımı qurbanlarının, Qarabağ müharibəsi şəhidlərinin xatirəsi anılıb, abidələri önünə tər qərənfillər düzülüb.

Daha sonra Saatlı Rayon Mərkəzi Xəstəxanasında aksiyaya start verilib. Aksiya çərçivəsində şəhid ailələrinə, qazilərə və onların ailə üzvlərinə professor Tofiq Cahangirov və onun rəhbərliyi altında çalışan həkim heyəti tərəfindən lazımi tibbi xidmətlər göstərilib.

Aksiya barədə məlumat verən YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov bildirib ki, bu "Zəfər Azərbaycanındır" şüarı ilə keçirilən ikinci aksiya idi: "İlk aksiyamız ötən il Qarabağda qazandığımız Qələbənin ildönümü ərəfəsində - noyabrın 8-9-da Sabirabad rayonunda baş tutmuşdu. Bu aksiya isə Saatlı rayonunda keçirildi və iki gün davam etdi. İki gün ərzində həkimlərimiz tərəfindən şəhid ailələrinin üzvləri və qazilərimiz üçün müxtəlif müayinələr aparılıb, onlara müalicələr təyin olunub".

T.Cahangirov bildirib ki, əvvəlki aksiyadan fərqli olaraq, bu dəfə yalnız kardioloji deyil, digər müayinələr də aparılıb: "Rəhbərlik etdiyim komandada 8 həkim təmsil olunurdu. Biz əsasən, elektrokardioqrafiya, rəngli dopler exokardioqrafiya, labarator müayinələr təşkil etdik. Ümumiyyətlə, noyabrda Sabirabadda keçirilən birinci aksiyadan sonra belə qənaətə gəldik ki, şəhid yaxınları və qazilərimizin yalnız kardioloji deyil, həmçinin nevroloji və digər müayinələrə də ehtiyacı var. Ona görə də bizim komandamızda Nevropatoloq, endokrinoloqa, müasir rəngli dopler exokardioqrafiya mütəxəsissləri və digər həkimlərimiz də var idi. Həmçinin laborator müyinələr - xəstələrdə şəkər, kreatinin, laxtalanma sistemi və digər analizlər aparıldı, diaqnozlar dəqiqləşdirildi, təyinatlar müəyyən olundu. 2 gün ərzində gərgin əmək sərf edən həkimlərimizə dərin təşəkkürümü bildirirəm. Həmçinin Fransanin "Servier" şirkətinin aksiyaya böyük dəstəyi oldu. Onlar bundan əvvəlki aksiyamıza da dəstək vermişdilər. Şirkətin nümayəndələri daha çox ehtiyacı olan xəstələri pulsuz və keyfiyyətli dərmanlarla təmin etdilər".

YAP İdarə Heyətinin üzvü belə aksiyaların davamlı olacağını açıqlayıb: "Biz qarşıdakı aylarda növbəti aksiyalarımızı keçirməyi planlaşdırırıq. Üçüncü aksiyamızı Kürdəmir rayonunda keçirmək niyyətindəyik. Daha sonra şimal bölgəsində də tibbi müayinə aksiyamız olacaq. Ümimiyyətlə, biz belə aksiyaların respublikanın bütün bölgələrini əhatə etməsini nəzərdə tuturuq.

# "Ulu Öndər Heydər Əliyevin elmi irsini öyrənirik adlı siyasi məktəbin" açılış tədbiri keçirilib







**Dünən Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatında "Ulu Öndər Heydər Əliyevin elmi irsini öyrənirik adlı siyasi məktəbin" açılış tədbiri keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər üzrə professoru, siyasi elmlər doktoru Elçin Əhmədov və YAP-ın fəal üzvləri çıxış edib.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin elmi irsi və onun fəaliyyəti ilə bağlı məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev iştirakçıları salamlayaraq bildirib ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi illərdə Azərbaycan dövlətinin inkişafına böyük töhfələr vermişdir: "Ulu Öndər Azərbaycanı çətin vəziyyətdən çıxardaraq inkişaf etmiş ölkələr siyahısına daxil etmişdir. Ulu Öndərin yaratdığı tarixi özümüz də dəqiq bilməliyik və bu tarixi gələcək nəsillərə də dəqiq ötürməliyik. Ulu Öndər rəhbərliyə gəldiyi illərdə Azərbaycan 15 sovet ölkəsi içərisində ən inkişaf etmiş respublika statusuna sahib olmuşdur. Sənaye, kənd təsərrüfatı, elm, incəsənət, ədəbiyyat və digər sahələrdə Azərbaycanın inkişafı üçün mühüm addımlar atmışdır. Savadlı gənclərin yetişdirilməsi istiqamətində 2000-ə yaxın gənci təhsil almaq üçün ən yaxşı universitetlərə göndərmişdir. Heydər Əliyev Azərbaycanda müstəqil elektron energetika sisteminin təməlini qoydu. Məhz Onun uzaqgörənliyi sayəsində Sovetlər birliyi dağıldıqdan sonra Azərbaycan dövləti heç bir ölkədən asılı olmadan özünü elektrik enerjisi ilə təmin etdi. "Ulu Öndər" titulunu Heydər Əliyevə Azərbaycan xalqı layiq görmüşdür. Sahil qəsəbəsində Dərin Özüllər Zavodunu yaratmışdır. Bunun vasitəsilə dünyanın tanınan neft şirkətləri Azərbaycana investisiya qoyublar".

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq Münasibətlər üzrə professoru, siyasi elmlər doktoru Elçin Əhmədov Ümummilli liderin Azərbaycanın tərəqqisinin və inkişafının onun adı ilə bağlı olduğunu qeyd edib: "Onun həyata keçirdiyi tədbirlər Azərbaycanın inkişafı üçün mühüm addımlardandır. Azərbaycan ziyalılarına, milli ruhda yazıb yaradan şairlərə, yazıçılara hər zaman dayaq olmuşdur. Gənc nəslə diqqət və qayğının göstərilməsi onun siyasətinin əsas hissəsidir. Qeyd edim ki, bugünkü inkişafımızın təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

Eyni zamanda SSRİ-nin yaxın Şərq siyasətini istiqamətləndirən şəxs məhz Ümummili lider Heydər Əliyevdir. Heydər Əliyev hakimiyyətə qayıdarkən Azərbaycanın xarici siyasətini düzgün məcrayə yönəltmişdir". Sonda isə tədbirdə iştirak edən gənclərin sualları cavablandırılıb.

***Abutel İlhamqızı***

# Dövlətçilik tariximizin mərkəzi - Şuşa!

***Azərbaycan xalqı tarix boyu öz torpaqlarında zəngin dövlətçilik ənənələri yaratmışdır. Dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan torpaqlarında dövlətçilik ənənələrinin təqribən 5 min illik tarixi var. Qarabağ xanlığının da Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri var.***






Qarabağ xanlığının hərbi-siyasi tarixində mühüm rol oynayan Şuşa sözügedən xanlığın uzun illər paytaxtı olub. "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın Konservatoriyası" adlandırdığımız Şuşa yüzilliklərin tarixini özündə yaşadan, qədim və zəngin dövlətçilik tarixinə malik olan şəhərdir. Tarixi mənbələrdə qeyd olunur ki, Şuşa qalasının salınması 1750-ci illərin əvvəllərinə təsadüf edir. Şəhər bir müddət Pənah Əli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdır.

## GÜCLÜ HƏRBİ-STRATEJİ MÖVQEYƏ VƏ MÜDAFİƏ QURĞULARINA MALİK ŞUŞA

Məhz Şuşa qalasının mövcudluğu sayəsində Qarabağ xanlığı çox güclü düşmənlərin hücumlarının qarşısını almış, öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olmuşdu. Qarabağ xanlığına ilk belə güclü hücum 1757-ci ildə baş vermişdi. Məhəmmədhəsən xan Qacar həmin ilin avqustunda 30 minlik ordu ilə xanlığın paytaxtı Şuşaya hücum etmiş, Qacar ordusu şəhəri mühasirəyə almışdır. Bir aydan artıq davam edən mühasirə zamanı Qacar ordusunun Şuşanı ələ keçirmək üçün göstərdiyi bütün cəhdlər uğursuzluqla nəticələnmişdi. Qarabağ xanlığı bir neçə dəfə belə hücumlara məruz qalsa da düşmən qüvvələrin niyyəti boşa çıxıb. Şəhərin çox güclü hərbi-strateji mövqeyə və müdafiə qurğularına malik olması, digər tərəfdən isə Qarabağ əhalisinin öz doğma torpaqları uğrunda ölüm-dirim savaşına qalxması bu niyyətləri boşa çıxarmışdır. Şuşalıların iradəsini qırmaq elə də asan məsələ deyildi. Güclü qüvvəyə malik düşmən hücumları qarşısında baş əyməyən Şuşa şöhrətini artırmaqla yanaşı, sürətlə inkişaf etmiş, əhalisinin sayı artmışdır. XVIII əsrin sonlarında burada artıq 17 məhəllə mövcud idi. Bu məhəllələrdən 9-u Pənahəli xanın, 8-i isə onun varisi İbrahimxəlil xanın hakimiyyəti dövründə salınmışdı.

## QARABAĞ XANLIĞI TƏKCƏ AZƏRBAYCANIN DEYİL, CƏNUBİ QAFQAZIN ƏN GÜCLÜ DÖVLƏT QURUMLARINDAN İDİ

Pənahəli xanın və İbrahimxəlil xanın fəaliyyətində Qarabağ xanlığının ərazisini genişləndirmək və son nəticədə pərakəndə Azərbaycan torpaqlarını vahid dövlətdə birləşdirmək siyasəti özünü aydın göstərirdi. Bu istiqamətdə ilk addımlar hələ Pənahəli xanın hakimiyyəti dövründə atılmışdı. O, xanlıq daxilində öz mövqelərini möhkəmləndirməklə yanaşı, qonşu xanlıqların da torpaqlarını ələ keçirmək siyasəti yeridirdi. Qarabağ tarixçisi Mirzə Adıgözəl bəyin verdiyi məlumatdan aydın olur ki, Pənahəli xan Şuşa şəhərinin əsasını qoyduqdan sonra əvvəllər Qarabağ xanlığının tərkibində olmuş Mehri və Sisian mahallarını, Təbriz xanlığının tərkibində olmuş Zəngəzur və Qafan mahallarını, habelə İrəvan və Gəncə xanlıqlarına məxsus olmuş bir çox torpaqları ələ keçirib Qarabağ xanlığının tərkibinə qatmışdı. Beləliklə, XVIII əsrin 60-80-ci illərində Qarabağ xanlığı yalnız Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ən güclü dövlət qurumlarından birinə çevrilmişdi. Bu dövrdə Azərbaycanla qonşu olan Osmanlı Türkiyə, İran və Rusiya kimi daha güclü dövlətlər özlərinin Qafqaz siyasətini həyata keçirərkən Qarabağ xanlığının mövqeyi ilə hesablaşmalı olurdular. XVIII əsrin sonlarından başlayaraq Azərbaycanın şimal xanlıqlarının, o cümlədən Qarabağ xanlığının müstəqilliyi üçün ciddi təhlükə yaranmışdır.



## KEŞMƏKEŞLİ TARİXİ OLAN ŞUŞADA BAŞ VERƏN OLAYLAR

XIX əsrin birinci yarısında Şuşaya şəhər statusu verilmiş və Rusiya imperiyasının "Şəhər əsasnaməsi"nin 28-29 maddəsinə əsasən, 1843-cü il mayın 21-də Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur. Mənbələrdə qeyd olunduğu kimi, gerbin ikiyə bölünmüş qalxanvari lövhəsinin yarıdan yuxarı hissəsi Xəzər vilayətinin gerbindəki təsvirlərin eyni idi. 1-ci hissədə pələng, ikinci hissədə yerdən çıxıb alovlanan qaz dilimləri təsvir olunmuşdu. Gerbin yarıdan aşağı hissəsindəki yaşıl sahədə yəhərli qızılı rəngli at təsvir olunmuşdu ki, bu da həmin ərazidə yerli cins at növlərinin olmasından və atçılığın inkişafından xəbər verirdi.




Çar hökuməti dövründə Şuşa tarixində baş verən olaylar diqqətdən kənarda qalmır. Həmin dövrdə Şuşada ermənilər azərbaycanlıları sıxışdırmağa başladılar. Ermənilər öz qarşılarına qoyduqları məqsədə çatmaq üçün durmadan səngərlər tikir, silahlanır, vilayətlərdən, şəhər və kəndlərdən Şuşaya canlı qüvvə gətirirdilər.

1918-20-ci illərdə də ermənilər Şuşa üzərinə dəfələrlə hücum edib onu yandırsa da, şuşalılar qəhrəmanlıqla müdafiə olunaraq, böyük itkilər hesabına şəhəri ermənilərə təhvil vermədilər.

1920-1937-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs etdirilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı. Şəhərin bir çox bəyləri əhalinin gözü qarşısında güllələnmişdi. Azərbaycanlı ailələrin xeyli hissəsi ermməni təqiblərindən xilas olmağın yeganə yolunu Şuşanı tərk edərək İrana və Türkiyəyə qaçmaqda görürdülər. Həyat keçirilən bu repressiyalar şəhərdə azərbaycanlıların sayının daha da azalmasına səbəb olmuşdu. Keşməkeşli tarixi olan Şuşa sovet hakimiyyəti dövründə 170 ildən artıq yerinə yetirdiyi missiyadan - bütün Qarabağın mərkəzi statusundan məhrum edilib. Bu Şuşa şəhərinə vurulmuş ən böyük zərbələrdən biri idi. 1963-cü il yanvarın 4-də isə Şuşa rayonu ləğv edilərək Stepanakert rayonunun tərkibinə qatılıb. Tarixi mənbələrə istinadən, Nikita Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edilib. Tarixin salnamələrinə nəzər saldıqca onun nə qədər hücum və təqiblərə məruz qalmasının şahidi oluruq.

"Biz Şuşaya qayıtmışıq!"

Ötən əsrin 70-ci illərindən Şuşanın həyatında yeni bir inkişaf dövrü başlayır. Ulu Öndər Heydər Əliyev tərəfindən şəhərin inkişafına xüsusi diqqət yetirilib. 1977-ci ildə Azərbaycan hökuməti iki tarixi qərar qəbul edib. Həmin qərarların yerinə yetirilməsi Şuşanın sosial və mədəni inkişafında böyük əhəmiyyət kəsb edib. Şəhərdə yeni sənət ocaqları yaradılıb, bərpa, tikinti və yaşıllaşdırma işlərində yüksək nailiyyətlər qazanılıb. Tarixi-memarlıq və şəhərsalma abidəsinin yüksək bədii əhəmiyyəti nəzərə alınaraq, 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilib. 1992-ci ildə Şuşa şəhərinin erməni işğalçıları tərəfindən işğalı nəticəsində şəhərdə 195 nəfər Azərbaycan vətəndaşı xüsusi amansızlıqla qətlə yetirilib, 165 nəfər yaralanıb, onlardan 150 nəfəri əlil olub, 552 körpə valideynlərini itirib. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600-ə yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını və s. talamış və məhv etmişlər.

Belə bir tarixi dövlətçilik ənənələrinə malik olan, tarix boyu alınmaz qala hesab olunan Şuşada 1993-cü ildən başlayaraq hər il mayın 9-da ermənilər Şuşanın işğalı gününü "Qələbə bayramı" kimi qeyd etsələrdə onların bu "atəşfəşanlığı" uzun sürmədi. Ümummilli Lider Heydər Əliyev deyirdi: "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Azərbaycan tarixi qələbə qazandı. 8 noyabr 2020-ci ildə Şuşa şəhəri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildi.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyirdi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

İndi Şuşa yeni dövrünü yaşayır. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzalayıb. Bu il ölkəmizdə dövlət başçısının Sərəncamı ilə "Şuşa ili" elan olunub.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan Şuşanın bu il 270 illiyidir. Zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamış Şuşamız tarixinin yeni bir dövrünü yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Müasir mətbuatımızın dəfn etdiyi publisistika

***Bəzən elə ürəyimdən keçir ki, qəzetləri səhifələyib yaxşı bir publisistik yazı oxuyam. Həmişə deyərəm ki, publisistik yazılar qəzetin istirahət yeridir. Siyasi, iqtisadi yazıları, xəbərləri oxuyan insan publisistik yazılarda yorğunluğunu çıxarır, dincəlir. Lakin tapa bilirəmmi? Hələ axtardığım yazı qalsın bir kənarda, bəlkə də qəzeti vərəqləmək istəyimə "geridə qalmışlığa bax, indi bütün informasiyalar işıq sürətilə sosial şəbəkələrdən süzülüb axır, bu hələ bir qəzet səhifələyib nə isə axtarmaq fikrindədir",- deyib gülənlər də ola bilər. Amma elə bəzi bədbəxtliklərimiz bu mənasını bilmədiyimiz və yersiz gülüşlərdən başlamırmı? Həyatımızın bütün tərəflərini internetləşdirmişik. Bu əgər müasirlikdirsə, necə deyərlər, Allah kəssin bu müasirliyi ki, bir-birimizin kefini də burada soruşuruq, bayramı da, ad günümüzü də burada qeyd edirik. Valideynlərimizi də burada ziyarət edirik. Qorxuram ki, yaxın gələcəkdə qəbirlərimiz də buradan ziyarət oluna.***

ŞƏRH

Deyirlər ki, dərdli danışqan olar. Axır zamanlar hiss edirəm ki, bütün yazılarımın girişində mətləbdən xeyli uzaqlaşıram. Məni anlayanlar bunu yəqin ki qüsur hesab etməzlər. Elə hər şeyi müasirləşdirə-müasirləşdirə hara gedirik biz? Axı artıq arxada nə isə qoymuruq qala. Bir gün "biz kimik" sualına, vallah, cavab axtaracağıq. Nə isə, keçim mətləbə.

Müasir dövrümüzdə bütün sahələr kimi, mətbuatımız da internet dünyasının, onun gətirdiyi yeniliklərin, bu yeniliklərə bir az da özümüzün qatdığı "yeniliklərlə" xeyli dəyişikliklərə məruz qalıb. Bütün kütləvi informasiya vasitələrinin indi yeni iş qaydası var. Bunu iş qaydası adlandırmaq məncə bir o qədər düzgün deyil. "Xəbər axtarışına çıxmaq" adlandırsaq daha çox yerinə düşmüş olar. Əsasən informasiya agentlikləri, saytlar xəbər müharibəsindədirlər. Gün ərzində kim qalib gələcək bunu daha çox axtarışda olanlar qazanır sözsüz ki. Bu, əslində yaxşı bir haldır. Mətbuatın bütün sahələri operativlik istəyir. Lakin mətbuatımızı bütövlükdə xəbərləşdirmək də düşgün deyil axı Xəbərləşdirmək başqa janrlardan bixəbərliyimizlə nəticələnir. Eyni bir xəbəri gün ərzində neçə dəfə oxumaq olar? Bəla orasındadır ki, bəzi jurnalistlərimiz xəbər də istehsal edə bilmirlər. Başqalarının xəbərləri hesabına xəbər verirlər. Müasir mətbuatımızın "baş tacına" çevrilən xəbərin bax müasir dövrdə bəxti belə gətirib. Bütün janrları sıxışdırıb, keçib yerlərinə. İndi mətbuatımız xəbər, reportaj və müsahibə janrlarından ibarət bir-birinə bağlı zəncirvarı reaksiyanı xatırladır. Belə ki, bir xəbər yayılır, jurnalistlərimiz xəbəri yazır, həmin xəbərin yerindən reportaj hazırlayır, ardınca da müsahibə alırlar. Hələ bu xəbər, reportaj və müsahibənin janr xüsusiyyətlərini ödəyib-ödəməməsi barədə danışmaq fikrində deyiləm. Beləliklə də digər janrlar günü-gündən mətbuatımızın çoxsaylı qəbiristanlıqlarında dəfn olunur. Mətbuat janrlarının ümumi mənzərəsini Bakı Dövlət Universitetinin professoru, hər bir jurnalistin sevimli müəllimi, istedadlı insan mərhum Famil Mehdi sıralayaraq deyirdi: "Xəbər, hesabat, müsahibə, reportaj, korrepandensiya, məqalə, icmal, resenziya, məktub, mətbuat xülasəsi, zarisovka, oçerk, felyeton, pamflet və təmsil, şarj, parodiya. Ancaq bu siyahıya esse, söz, gündəlik, səfərnamə, bədii-publisist, tərcümeyi-hal, xatirə, bədii nitq, nekroloq və başqalarını da əlavə etmək lazımdır". Digər sevimli müəllimimiz Cahangir Məmmədli isə bu janrların hər birinin yaradıcılıq məqamında jurnalistin özünüifadə aktına çevrildiyini qeyd edir, vurğulayırdı ki, janr müəllifə özünüifadə üçün xüsusi imkan yaradır.

Qəzet janrları bütövlükdə bir qəzetin ərsəyə gəlməsində, onun hər sayının oxucu zövqünü oxşamasında sanki birləşərək böyük bir vəzifəni yerinə yetirirlər. Məqalə, xəbər, reportaj, korrespandensiya, xülasə, oçerk, felyeton və sair-bunların hər biri ayrı-ayrılıqda



oxucunun qəzetin növbəti sayında bu janrlar nəyi işıqlandıracaq marağını meydana çıxarır.

Jurnalistlərin peşəkarlıq səviyyəsinə yüksəlməsində janr məqamının böyük rolu var. Qəzet redaksiyalarının müxtəlif şöbələrində çalışan jurnalistlər daim yazdıqları janrların sayəsində püxtələşir, zaman-zaman yaxşı xəbərçiyə, icmalçıya, oçerkist, felyetonçuya, ən başlıcası isə peşəkar jurnalistə çevrilirlər. 30-dək mətbuat janrının tək 2-3-dən istifadə edilməsi mətbuatımızı haraya aparır, bu barədə düşünməyə çoxdan başlamışıq, lakin hamımız yox, bir neçələrimiz. Müasir mətbuatımızda tək xəbərçilərmi yetişdirilir? Oxucunun necə, həyatı tək xəbərlərdənmi ibarətdir? Axı onun ətrafında minlərlə felyetonun mövzusu cərəyan edir. Axı işğaldan abad olunmuş rayonlarımız da daxil olmaqla ölkəmizdə aparılan quruculuq işləri nəticəsində abadlaşan yurdlarımızın hüsnü, torpağa tər verib zər alan zəhmətkeş insanların sübh çağından gün batanadək maraqlı həyatı, bir şəhid, bir müəllim, bir həkim, bir fəhlə ömrü yüzlərlə oçerklərdə yaşamağa layiqdir. Bütün bunlar həmçinin gözəl məqalələrdə də təhlil oluna bilər.

Bədii-publisistika həyatın özüdür. Biz həyatımızın gözəlliklərini də, çirkinliklərini də bu janrda canlandıra, oxunaqlı yazılara çevirə bilərik. Zarisovka, pamflet, parodiya, təmsil ümumiyyətlə yoxa çıxdığından bu barədə nə danışasan ki?..

Həcmi çox vaxt geniş xəbər qədər olan esse janrının bəxtinu də xəbər qədər gətirə bilmədik. Dörd fəsil bir-birinin ardınca ötür, keçir. Gənc jurnalistlərimizin qələmindən payızın yarpaq tökümünü xışıltıya çevirən füsnundan, qışın qarının bəyazından, baharın düymə tumurcuqlarından "istehsal olunan" ağ, çəhrayı örpəklərdən, yayın yaşıl gözlərindən yazıb oxucu zövqünü oxşayan bir esse necə də oxumaq istərdik. Hələ gözlərimiz önündəki fəsillərdən söhbət açdım, minlərlə esse mövzuları var. Onları təbiətdən, yurd yerlərimizdən, ailələrimizin fonunda milli dəyərlərimizdən, insan taleyindən yazılara köçürüb qəzet səhifələrinə yerləşdirmək gözəl olmazdımı?

Fotojurnalistikanı bu gün günün günorta çağında əlimizdə çıraqla axtarsaq, bəlkə bəzi mətbuat orqanlarında az sayda tapa bilək. Yaxşı, yeri gələndə deyirik ki, publisistika çətin janrdır, hər kəs bu janrda yazmağı bacara bilmir. Bunun üçün anadangəlmə qabiliyyət olmalıdır, şair təbiətli, nə bilim yazıçı ruhlu olmalısan kimi onlarla bəhanə gətiririk. Bəs müasir gövrdə hamımızın əlində telefon olduğu halda fotojurnalistikanı niyə dəft etmişik publisistikanın yanına? Yəni küçədə, parkda, yolda, bağ-bağçada, mağazada elə bir an yoxdur ki, fotoya köçürüb bir cümlə ilə onu canlandıraq? Axı bu, elə bir janrdır ki, indi daha çox inkişaf etdirilməlidir. Əvvəllər redaksiyalarda fotomüxbirlərə ehtiyac vardı. İndi telefonlar fotoaparatlardan da gözəl və keyfiyyətli şəkillər çəkir və maraqlı hal ondan ibarətdir ki, hər kəs bu işi çox yaxşı bacarır. Belə isə yəqin biz jurnalistlər sadəcə baxırıq, görmürük. Xülasə, bəzən oxucuları günahlandırırıq ki, sosial şəbəkələrə, elektron qəzetlərə daha çox meyl edirlər. Vallah bunun günahı biz mətbuat işçilərindədir. Nə etsin oxucu, yazıldı, qarşısına çıxdı, oxumadı? Əlacsız qalan oxucu təbii ki, ancaq xəbər oxuyacaqdır da. Çünki yuxarıda da qeyd etdiyim kimi indi ancaq xəbər savaşındayıq, başqa janrları unutmuşuq.

Bu mövzu elə bir mövzudur ki, səhifə-səhifə yazsaq da bitməz. Lakin çox uzun da yazıb oxunaqsız material olmasın deyə buradaca yazını bitirirəm. Son sözüm isə budur ki, necə ki, biz bu gün ötən illərin qəzetlərini vərəqləyəndə bütün janrların ahəng təşkil etdiyi qəzetlərə "bəh-bəh" deyirik, bir zaman da bizim mətbu nümunələrimiz eləcə vərəqlənəcək. Oxucunun təəssüratı nə olacaq, bax gəlin bunu düşünək!

***Mətanət Məmmədova***

# Erməni nigarançılığı...

***Siz bilirsinizmi ki, bu gün ABŞ-ın biz ermənilərdən istəyi nədir? Görürəm, ermənilərin əksəriyyəti bunu bilmir. Əslində, mən də yaxşı bilmirdim. Amma o gün ABŞ dövlət katibi Entoni Blinkenin Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığından sonra başa düşdüm. Mən başa düşdüm ki, ABŞ bizə açıq deməsə də, amma bizdən Rusiyaya "arxa çevirməyi" istəyir. Amma onu da deyim ki, biz bu işdə çox ehtiyatlı olmalıyıq. Çünki dünyanın işini bilmək olmur. Təbii ki, əvvəllər olsaydı...***

Amma indi belə görünür ki, deyəsən türklər demiş, bu, "həna, o hənadan deyil".

Yəni demək istəyirəm ki, əgər əvvəllər biz ermənilər üçün ümumi formulalardan birtəhər qurtulmaq mümkün idisə, indi deyəsən mümkün olmayacaq. Çünki bizim Xocalıda törətdiklərimizdən fərqli olaraq, Buçada baş verənləri bütün dünya görür. Çünki Bucadakı yaşantıların təbliğinə ABŞ başda olmaqla böyük dövlətlər sponsorluq edirlər.

Maraqlıdır, görən, o gün Blinkenin Nikola zəng edəndə o Ermənistandan Rusiyaya qarşı sanksiyalara qoşulmağı tələb edibmi? Xeyr, inanmıram, tələb-zad eləməyib. Çünki amerikalılar bu tələbin qeyri-reallığını mükəmməl başa düşürlər. (İnanın ki, adam burada "halal olsun" demək istərdi, amma kimə? Əslində, bunların zadlarını, ey... başlarını başa qoşmaq cəhdləri çox gülünc görünür)

Amma bütün bunlara baxmayaraq, biz "böyük erməni xalqı" olaraq hələ ki, hansı səmtə yıxılacağımıza dəqiq qərar verməmişik. Niyə? Çünki, bunun üçün bəzi əsaslarımız var. Nə bilmək olar, bəlkə baxıcı Vanqanın Putinin qalib gələcəyi barədə görüntüləri



doğru çıxdı, bəs onda? Əgər biz bu gün Qərbə sığınsaq, bəs onda sabah "qalib" Putinə nə cavab verərik?

Bundan əlavə, görünür Rusiya dayanmaq fikrində deyil. Biz bunu, təkcə bu ölkə rəhbərlərinin çıxışlarından görmürük. Məsələn, o gün müstəqil "Levada Mərkəzi" də Rusiyada Vladimir Putin və hakim partiyanın reytinqləri ilə bağlı yeni sorğu dərc edib. Xəbəriniz varmı ki, bu sorğunun nəticələrinə görə, son bir ayda hakimiyyətə dəstək xeyli artıb. Hələ onu deyim ki, prezident Putini təsdiqləmə səviyyəsi fevralda 71faiz idisə, martda 83 faiz olub. Ona görə də bu gün biz ermənilər üçün əsası informasiya müharibəsində uduzmamaqdır. Bir erməni kimi, içimizdə nə çəkdiyimizdən fərqli olaraq, anti-Rusiya əhval-ruhiyyəsinin təbliğinə imkan verməməliyik. Yəni bu işlərin sonunu gözləməliyik.

Bilirəm, bu gün Ermənistanda yaşamaq çətindir. Bahalıqdır. Ölkədə daimi qiymət artımı Ermənistan əhalisinin ölkənin siyasi kursuna ümumi loyallığının azalmasına gətirib çıxarıb. Bunu təkcə mən demirəm. O gün sorğu aparılıb. Sorğuya görə, əgər 2021-ci ilin mayında Ermənistan əhalisinin 43 faizi "Ermənistanın düzgün istiqamətdə getdiyinə" inanırdısa, iyulda bu 41, 2021-ci ilin dekabrında isə bu rəqəm 34 faizə düşüb. Ermənistanda işığın, suyun və tezliklə qazın qiymətinin artması ictimai gözləntilərin daha da pisləşməsinə gətirib çıxaracaq.

Deyim ki, bu gün daha çox Ukraynadan gedənlərlə bağlı daha çox danışılır. Təbii ki, bunu başa düşmək olar, ölkədə müharibə gedir, amma bizdə baş verənlərin heç bir izahı yoxdur. Belə ki, bu Ermənistanda miqrasiya ilə bağlı vəziyyət olduqca dəhşətlidir.

Baxın, 2021-ci ildə Ermənistanın miqrasiya saldosu mənfi 74 min nəfər təşkil edib. Nümunə üçün deyim ki, 1994-cü ildən bəri Ermənistanda belə mənfi miqrasiya saldosu olmayıb.

Son vaxtlar Qərb tərəfindən Ermənistanın bank sistemi ilə bağlı anti-Rusiya sanksiyaları gücləndirildikdən sonra, daha çox İnformasiya Texnologiyaları üzrə erməni mütəxəssislər ölkədən qaçmağa başlayıblar. Təbii ki, bu gün biz nə etməyimizdən asılı olmayaraq, dünya bizi artıq Rusiyanın "strateji müttəfiqi" (əslində tulası da demək olar) kimi qəbul edir və qəbul edəcək. Halbuki Azərbaycan və Türkiyə Qərbə görə belə deyil. Əksinə, onlar Ukraynanın müttəfiqləri sayılırlar və bunu Kiyevdə də tez-tez etiraf edirlər. Bununla belə, Rusiya ilə də yaxşı münasibətdədirlər.

...Deyəsən, nəhayət qapılar bağlanır axı...və indi bütün bunların biz ermənilər üçün necə olacağına gözləmək qalır. Doğrudan da, "nigarançılıqdan pis şey yoxdur"...

***Ağasəf Babayev***

# “Sizi deyib gəlmişəm”

## 116 yaşlı "Molla Nəsrəddin"i zaman özü yaratdı

***1906-cı ilin 7 aprel günü Azərbaycan ədəbi, ictimai mühitində mühüm hadisəyə çevrilən satirik jurnalın "Molla Nəsrəddin"in təməl daşı qoyuldu. Həyatını xalqına həsr edən Cəlil Məmmədquluzadə satirik ruhlu "Molla Nəsrəddin"lə sözünü deməyə tələsib, çox kəskin çıxışları ilə xalqın müdafiəçisinə çevrildi. Həcmi kiçik formatda olan "Molla Nəsrəddin"in çapı həftədə bir dəfə nəzərdə tutulmuşdur. Proqram səciyyəvi baş məqalədə isə Molla Nəsrəddin üzünü doğma xalqına tutub söyləyirdi: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım, o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".***



Ötən əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni mühitində əlamətdar hadisələrdən birinə çevrilən ”Molla Nəsrəddin” jurnalının ilk nömrəsinin işıq üzü görməsi böyük əks-səda doğurdu. Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə 1906-cı il fevralın 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edərək ”Molla Nəsrəddin” adlı satirik-yumoristik jurnal çıxarmasına icazə istədi. Bu təşəbbüsü o zaman Qafqazda Rusiyanın digər yerlərində çıxan Azərbaycan, rus və tatar qəzetləri bəyəndi, bu barədə xəbərlər yaydılar. ”İrşad”, ”Həyat”, ”Tərcüman”, ”Vozrojdeniye”, ”Kaspi”, ”Baku”, ”Novoye obozreniye”, ”Kavkazskoye utro”, ”Na povorote” qəzetləri ”Molla Nəsrəddin”i çıxarmaq təşəbbüsü barədə oxuculara xəbər verdilər.

### ”MOLLA NƏSRƏDDİN” BİR NEÇƏ MƏNİM ƏZİZ YOLDAŞLARIMIN QƏLƏMLƏRİNİN ƏSƏRİNİN MƏCMUƏSİDİR Kİ, MƏN DƏ ONLARIN ANCAQ AĞSAQQAL YOLDAŞIYAM”

”Molla Nəsrəddin” jurnalının yaradıcısı və redaktoru olan Cəlil Məmmədquluzadə bu nəşri ilə insanları qəflət yuxusundan oyatmağa çalışırdı. Mirzə Cəlil ”Molla Nəsrəddin”də əsas sima, məsləhətçi və böyük yoldaş idi. Ədib özü bu barədə yazır: ”Molla Nəsrəddin” tək bir nəfər müəllifin əsəri deyil. ”Molla Nəsrəddin” bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam”.

Jurnalın 7 aprel tarixli ilk sayında Mirzə Cəlilin ”Molla Nəsrəddin” imzası ilə ”Tiflis 7 aprel” sərlövhəli baş məqaləsi, ”Məcmuəmizə müştəri olanlara nəsihət”, ”Molla Nəsrəddinin teleqramları”, ”Bilməli xəbərlər”, ”Dəllək”, ”Atalar sözü” və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olundu. Zamanla üz-üzə dayanan ”Molla Nəsrəddin” jurnalının ilk sayının işıq üzü görməsindən çox keçmədi ki, dövrün maarifpərvər, işıqlı ziyalıları onun ətrafına cəm olaraq, yaradıcılıq nümunələri ilə jurnalın fəallarına çevrildilər. Jurnalın nəşrinə qədər artıq qələminin, iti zəkasının hökmü ilə parlaq səhifələr yaradan Cəlil Məmmədquluzadə ədəbi mühitdə möhürünü vurmuş, hekayə, povest, alleqorik, eləcə də, dram əsərləri ilə Azərbaycanın yaşantılarını əks etdirən mövzularla çıxış etmiş, xalqın sevimlisinə çevrilən ziyalılardan biri olmuşdur. Məhəmmədhəsən əmilərin, novruzəliləri, zeynəblərin həyat hekayəsini yazan Cəlil Məmmədquluzadəni baş verən hadisələr rahat yaşamağa qoymurdu. Həqiqətən də Cəlilin qəlbində vətən sevgisi sonsuz idi. Hər zaman yaradıcılığında xalqın taleyini əks etdirməyə, insanların keçirdiyi psixoloji sarsıntıları, məişət problemlərini qabarıq bir şəkildə ifadə etməyə çalışan ziyalı dövrünün yüksək vəzifəli simalarını söz atəşinə tutmağa, qələminin gücü ilə onlara təsir etməyə çalışmışdır. Ədəbi fəaliyyətə 1880-cı illərdən başlayan Cəlil Məmmədquluzadə, özünəməxsus olan məktəb yaratmışdır. Bu məktəbin təməli Cəlil Məmmədquluzadənin əqidəsindən, məsləkindən yoğrulduğundan, döyüş meydanlarında möhkəm dayanaraq, sözünün gücünün nəyə qadir olduğunu sübuta yetirmişdi.



### DÜZÜ-DÜZ, ƏYRİNİ-ƏYRİ DEMƏYİ ÖZÜNƏ YOL SEÇDİ

İstismar dünyasına qarşı çıxış edən, ziyalıları əqli və qələmi ilə mübarizəyə çağıran Cəlil Məmmədquluzadə xalqın buxovlandığı bir cəmiyyətdən xilasını yalnız maariflənməkdə, öz hüquqlarının müdafiəçisinə çevrilməkdə görürdü. Azərbaycan ictimai mühitində böyük rol oynayan ”Molla Nəsrəddin” ilk sayından başlayaraq düzü-düz, əyrini-əyri deməyi özünə yol seçmişdir. Sözünü kəsib, gözünü ağardan insanların hədə-qorxusunu nəzərə almadan, demokratiyanı boğan, mənfi hallarla cəmiyyətin inkişafına mane olan simasızları yazılarının qəhrəmanı seçərək, leksionumuzda eybəcərliyi ifşa edə biləcək tutarlı ifadələri onların ünvanına söyləyirdi.

Əlbəttə ki, satirik qələmdən qorxub, cilddən-cildə düşən şəxslər ”Molla Nəsrəddin”in tənqid hədəfinə çevrildi. Bu jurnalı zaman özü yetişdirmişdir. ”Mola Nəsrdddin”i zəmanə özü yaratdı” - deyə Cəlil Məmmədquluzadə yazırdı. Molla Nəsrəddin” məcmuəsi obrazlı desək, xalq ruhundan, folklorundan bəhrələnməklə öz fikrini oxuculara çox gözəl, məharətlə çatdırmaq bacarığına malik idi. Jurnalın redaktoru, sadəcə olaraq, söz demək xatirinə qələmə sarılmamışdır. Jurnalın qarşıya qoyduğu problemlərin bədii və publisistik həllində Cəlil Məmmədquluzadənin tutduğu yol, səpdiyi toxum öz bəhrəsini verirdi. Bu baxımdan ki, bu orqan milli şüurun oyanmasında və formalaşmasında müstəsna rol oynadı. Cəmiyyət üçün fəlakət gətirə biləcək şəxslərə kəskin nifrət və qəzəbin ifadə olunması, hər tipin öz xarakterində canlandırılması ”Molla Nəsrəddin”çilərin əsas mövzularından idi.

Xalqın ziyalı sözünə, ziyalı fikrinə ehtiyacı yarandığı bir zamanda satirik qələmlə onun tələbatını ödəmək əsl hünər və vətənpərvərlik idi. Müsəlman dünyasını bürüyən geriliyi xalqın avamlığında görən Cəlil Məmmədquluzadə ”Molla Nəsrəddin” jurnalının çapının nə dərəcədə əhəmiyyətə malik olduğunu dərk edirdi. O, ziyalıları yalnız əqidəyə, məsləkə xidmət edib, tutduğu yolda qələmi silaha çevirərək, dövrün haqsızlıqlarını açıq-aşkar ifşa edərək, hakim qüvvələri qamçılamağa, öldürücü satira atəşinə tutmağa çağırırdı. Onların yaradıcılığının qayəsi insan ideologiyasını dəyişdirib, dövrün tələbləri səviyyəsində görmək idi. Belə ki, qarşıya qoyulan məqsəd, önəmli məsələ cəmiyyətdəki ziddiyyətlərin yaranma səbəbini göstərmək, xalqı ictimai fəaliyyətə səsləndirmək, qabaqcıl ideyalar əsasında cəmiyyəti mütərəqqi ideyalara qovuşdurmaq idi.



### ”MOLLA NƏSRƏDDİN” BİR MƏKTƏB OLDU

Qısa bir zaman məsafəsində, ”Molla Nəsrəddin” məşhur satirik jurnal kimi tanındı. Görkəmli qələm sahiblərinin bir-biri ilə ideya-yaradıcılıq əlaqələri genişləndi. Cəlil Məmmədquluzadənin təbliğ etdiyi demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə isə nüfuz qazandırdı. Ziyalı gücünə malik olan, nurlu insanların əsərləri bu jurnalın səhifələrində yer alırdı. ”Molla Nəsrəddin”çilər Azərbaycanda, eləcə də, Yaxın Şərqdə ”Molla Nəsrəddin məktəbi” adlı qüdrətli mətbuat məktəbini yaratdılar. ”Molla Nəsrəddin”dən sonra ”Suri-İsrafil”, ”Azərbaycan”, ”Nəsimi-şimal” (İran), ”Cəm” (Türkiyə), ”Uklar”, ”Yəşen” (Tatarıstan), ”Toqmaq” (Türkmənistan) və s. jurnallar çap olunaraq, beynəlxalq aləmdə mühüm rol oynamağa başladı.

Qeyd edək ki, jurnalın oxucularının da sayı durmadan artırdı. Rusiyadan başqa, hətta Asiya, Avropa və Amerikanın bir çox ölkələrində abunəçiləri var idi. Günü-gündən peşəkarlaşan və zamanın nəbzini tutmağı bacaran jurnal sərt mövqeyini və prinsipiallığını sona qədər qoruya bildi. Bütün əldə olunan uğurlara baxmayaraq, Cəlil Məmmədquluzadə irtica və qaragüruhçuların arasıkəsilməz tənqidinə sinə gərməli oldu. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, ”Qeyrət” mətbəəsində axtarışlar aparır, ”Molla Nəsrəddin”in nəşrini dayandırırdı. 1920-ci ilin iyun ayında Cəlil Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş, 1921-ci ildə orada ”Molla Nəsrəddin”in 8 nömrəsini buraxdırmağa nail olmuşdur. 1922-ci ildə vətənə qayıdan Cəlil Məmmədquluzadə jurnalın nəşrini davam etdirmişdir. Cəlil Məmmədquluzadə böyük bir amalın daşıyıcısı olduğundan, mübarizəni davam etdirərək, daha qətiyyətli addımlar atmağa başlayır. Bu nurlu şəxs 1922-ci ildən 1930-cu illərə qədər ”Molla Nəsrəddin”i mübariz orqanlardan birinə çevirmək üçün bir nəsli satirik jurnalistika sahəsində işləməyə hazırlaşdırır. Jurnal Yaxın və Orta Şərqdə, İranda və Türkiyədə ədəbi-ictimai fikrin inqilabi, demokratik hərəkatın güclənməsinə təsir göstərmişdir. ”Molla Nəsrəddin” bir məktəb, bir nümunə oldu.

### “MOLLA NƏSRƏDDİN” RUHUNU, CƏLİL MƏMMƏDQULUZADƏ ƏNƏNƏLƏRİNİ YAŞADANLAR

Zaman ötdükcə, satirik ruhlu insanlar da yetişməkdə davam etdi. Hər onillikdə bu məqam özünü göstərirdi. ”Molla Nəsrəddin” jurnalının davamçıları yetişdi. 1952-ci ildə ”Kirpi” jurnalının nəşrə başlaması zaman və dövrün tələbatı baxımından reallaşmışdır. ”Kirpi” jurnalı da dövrün neqativ hallarına qarşı barışmazlıq nümayiş etdirilmişdir. Jurnalda bürokratizmə və rüşvətxorluğa qarşı mübarizə güclü idi. Bu jurnaldan sonra ”Kirpi”nin davamçıları ”Şeytan”, ”Mozalan”, ”Karikatura”, ”Dəryaz” kimi satirik ruhlu qəzet və jurnallar nəşr olunmuşdur. Böyük bir təcrübədən bəhrələnən bu qəzet və jurnallar ”Molla Nəsrəddin” ruhunu yaşatmağa, Cəlil Məmmədquluzadə ənənələrini yazılarında davam etdirməyə çalışmışdı.

Onu da vurğulayaq ki, jurnalın nəşri karikatura janrının inkişafında müstəsna rol oynamış və əsərlərin yaranmasına təkan vermişdir. Artıq karikaturaçı rəssamlar ordusu yaranmışdır. ”Molla Nəsrəddin” jurnalının davamçısı ”Kirpi” olduğu kimi, Əzim Əzimzadə məktəbinin davamçısı da Nəcəfqulu İsmayılov olmuşdur. Əzim Əzimzadə əməllərinə söykənən nəslin nümayəndələri, artıq bir cəmiyyət ətrafında sıx birləşmişdilər. Bu, Azərbaycan Karikaturaçı Cəmiyyətidir. Azərbaycan Karikaturaçı Cəmiyyəti bu gün Dünya Karikatura Təşkilatı Federasiyasının üzvüdür. Azərbaycan karikaturaçı rəssamlarının dünya karikaturaçılar ailəsində öz yeri olduğunu təsdiqləyir.

Bu gün ”Molla Nəsrəddin” jurnalının 116 yaşı tamam olur. Bu illər ərzində, Cəlil Məmmədquluzadənin yaratdığı məktəbin davamçıları yetişməkdədir. Çətin, təqiblərə məruz bir dövrdə cəsarətli addımlar atıb, dövrün mənzərəsini satirik ruhla qələmə almaq nə qədər çətin olsa da ”Molla Nəsrəddin” amalına sadiq qaldı. Bu gün isə Azərbaycanda azad söz, azad mətbuat var, açıq cəmiyyətdə yaşayırıq. Senzuranın olmadı bir zamanda qələm sahibləri fikir və düşüncələrini sərbəst şəkildə qələmə alırlar. Bir əsrdən artıq yol gələn jurnalın ab-havası, onun yaradıcısı Cəlil Məmmədquluzadənin ruhu müasir nəslə bəhəm yaşayır. Onun yaratdığı məktəb, ənənə yaşayır, bizləri düzlüyə və əqidəmizin quluna çevrilməyə çağırır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ramazan ayında hansı qidalardan uzaq durmalıyıq?

***İftar süfrəsi hazırlamaq ənənəsi Osmanlıdan bizə qalan mənəvi mirasdır. İftar süfrəsi menyüsünün zənginliyi də qədim zamanlardan mədəni irsdir. İftarı gözləyərkən bütün ailə süfrədə olmalıdır. 11 ayın sultanı Ramazan ayı gələndə ən böyük həyəcan mətbəxdə yaşanır. Şkaflar təmizlənir, ən təzə meyvə və tərəvəzlər alınır. İftar süfrələrinin ən gözəl cəhəti insanları xeyirxahcasına ətrafına toplamasıdır. Bəs, iftar süfrəsi necə hazırlanmalıdır? Hansı qidalar süfrədə üstünlük təşkil etməlidir? Süfrə necə hazırlanmalıdır? Bütün ailə üzvlərinin birlikdə olması vacibdir? SİA məsələ ilə bağlı araşdırma apararaq din xadimlərinin və qida mütəxəssislərinin fikirlərini öyrənib.***



Masada nə qədər çox insan olarsa, bir o qədər çox çəngəl-boşqab düzməlisiniz. Menyunuzda isti və soyuq yeməklər olacaqsa, süfrənizdə şorba kasası və yemək boşqabı qoyulmalıdır. Çəngəl, qaşıq və bıçaqların düzülüşü diqqət tələb edən məsələdir. Qəşəng iftar süfrəsi üçün çəngəlləri işləməli salfetin üzərinə düzə bilərsiniz.

İftar vaxtından bir neçə saat əvvəl başlayan hazırlıqlar azan vaxtına qədər davam edir. Əvvəlcə desertlər, sonra isə ət yeməkləri hazırlanır. İftarın son dəqiqələrində şorba və salatlar təravətini qorumaq üçün süfrədə öz yerini gözləyir.

**Bəs mükəmməl və zövqlü iftar süfrəsi təşkil etmək üçün nə etmək lazımdır?**

Oruc su ilə açıldığından, süfrəyə verilən boşqabların yuxarı sağ küncünə fərdi su stəkanı qoyulmalıdır.

Su elə doldurulmalıdır ki, stəkanlarda bir az yer qalsın. Əgər yemək zamanı sərinləşdirici içkilər veriləcəksə, su stəkanından fərqli bir stəkan əlavə edilməlidir.

İsti və soyuq qəlyanaltılarınızın süfrədəki insanların asanlıqla çatmasını təmin etməlisiniz. Qəşəng iftar süfrəsi hazırlamaq üçün yeməklərinizə mane olmamaq şərti ilə kiçik bir vazaya gül qoya bilərsiniz.





Boşqablarınızın və yeməklərinizin zərifliyini bir az da daha çox göstərmək üçün süfrənizi sadə və açıq rəngli süfrə ilə dekorasiya edə bilərsiniz.

İstəyirsinizsə, kiçik nəlbəkilərə müxtəlif ədviyyatlar qoya bilərsiniz. Siyahıda göstərilən süfrə qaydalarına əməl etdikdə Ramazan süfrənizi mükəmməl bir nizamla hazırlaya bilərsiniz.

Ramazan mədəniyyəti və oruc tutmaq İslamda dəyər və əhəmiyyət verilən mövzulardır. İslamın 5 şərtindən biri olan oruc insanı dinc edən, mənəvi hissləri gücləndirən dini bir vəzifədir.

Oruc tutmaq və dua etmək, demək olar ki, hər bir evə rahatlıq verən ən mühüm məqamdır. Bir çox insan üçün iftar süfrəsi hazırlamaq xüsusi məqamdır.

Süfrədə istifadə olunacaq məhsulların və istehlak ediləcək qidaların diqqətlə seçildiyi iftar süfrələri ailə üzvlərini bir araya gətirir.

İftar süfrəsinin necə hazırlanacağını soruşanlara tövsiyə edəcəyimiz nadir detallardan biri də bu süfrənin sevgi ilə hazırlanması olacaq.

İstifadə edəcəyiniz salfetlərin boşqablara uyğun olması qonaqlarınızdan tam qiymət ala bilər. Həmçinin qeyd edək ki, uyğun rənglərin birlikdə istifadəsi iştahı açarkən gözləri qamaşdıracaq.

İftar süfrəsini şorba, isti və soyuq qəlyanaltılar, ləzzətli əsas yemək və sonra qan şəkərini balanslaşdıran desertlə tamamlaya bilərsiniz.

İftar süfrəsi Osmanlı dövründə əhəmiyyət verilən və xalqın həyəcanla hazırladığı yemək vaxtıdır.

Osmanlı dövründə iftar süfrəsi bir neçə mərhələdən ibarət idi. Birinci mərhələ orucun açıldığı, su içildiyi və iftar deyilən yüngül yeməklərin yeyilməsidir. İkinci mərhələ əsas yeməklərin yeyildiyi hissədir.

Osmanlı iftar süfrələrində şorba ilə başlayan yemək mütləq güllaç adlı şirniyyatla bitərdi.

Bu səbəbdən Güllaç Osmanlı dövründən bu günə qədər türklərdə Ramazan mədəniyyəti olaraq qəbul edilir.

İftardan sonra yeməyi yeməyə tələsməmək lazımdır. Tələsik yemək həm etik baxımdan qəbuledilməzdir, həm də ac qarına sağlamlığa zərərlidir.

Mütəxəssislər istirahət etməyi və yeməklər arasında 15 dəqiqəlik fasiləni məsləhət görür. İftar süfrəsinə mümkün qədər tərəvəz daxildir.

Gün ərzində ac qalan mədəni rahatlaşdırmaq üçün lifli qidalardan istifadə etmək tövsiyə olunur. Həmçinin, bədən müqavimətini qorumaq üçün qırmızı ətin istehlakı da vacibdir. Protein ehtiyacını ödəmək və əzələ itkisinin qarşısını almaq üçün iftar süfrəsində yer alan qidalardan biri də ağ ət tərkibli yeməklərdir.



**Təhlükəsiz qida tədqiqatçısı Asim Vəlizadə:** "Hal-hazırda mübarək Ramazan ayının ilk həftəsindəyik. Gün ərzində 17 saatdan çox ac və susuz qaldığımız üçün sahur vaxtı bizi tox saxlayacaq qidaları qəbul etməyə çalışmalıyıq. Xüsusilə də ağır işdə və açıq havada çalışan insanlar buna mütləq riayət etməlidir.

İlk növbədə sahurda çox duzlu qidalar, qızartmalar, şirniyyatlardan uzaq durmalıyıq.

Gecə yatarkən biraz yeyib yatmaqdansa, vaxtında sahura qalxıb yemək daha faydalıdır. Susuz qalmaq orqanizm üçün çox risklidir və bu baxımdan lazımi qədər maye qəbul etmək vacibdir. Maye qəbul zamanı su başda olmaqla, ayran, mineral su, meyvə kompotuna üstünlük verə bilərsiniz. Qara çay, qazlı və rəngli içkilərdən uzaq durun.

Gün ərzində qan şəkərini tənzimləmək üçün təzə və quru meyvələr daha faydalıdır. Çox şirin şirniyyatlardan uzaq durmaq lazımdır.

ARAŞDIRMA

Ardı Səh. 12



# Ramazan ayında hansı qidalardan uzaq durmalıyıq?

**Əvvəli-Səh-11**

Sahur vaxtı yediyimiz duzlu yeməklər (məs. turşu, duzlu zeytun, duzlu pendir, kolbasa və s.) bizi tez susadır. Zeytun yeməyi çox sevirsinizsə, iftarda yesəniz daha məqsəduyğundur.

Sahurdan sonra rahat yuxuya getmək üçün qızartma yeməklərdən uzaq durmağınız məsləhət görülür. Çox isti, çox soyuq qidalar və içkilər mədədə qaz əmələ gətirərək narahatlıq verə bilər.

Alma vitamin və mineral baxımından həm çox zəngindir, həm də alma lifli qurluşuna görə toxluq hissini uzadır. Xiyar, kələm, və digər yaşıl yarpaqlı tərəvəzlərin həzmi yavaşdır və sizi uzun müddət tox saxlaya bilər.

Yulaf əzməsi sizin uzun müddət tox saxlaya bilir. Qlisemik indeksi aşağı, amma qida dəyəri baxımından zəngin olan yulaf əzməsi gec acdırır. Yaşıl çay da sizin aclıq hissinizi yatırmağa köməklik edə bilər.

Yumurta da sahur üçün ən faydalı qidalardandır. Xüsusilə soyutma şəkildə yemək daha faydalıdır.

Oruc tutarkən orqanizm uzun müddət ehtiyacı olan sudan, bir çox minerallardan uzaq qaldığı üçün gün ərzində özümüzü ac, susuz, yorğun, enerjisiz hiss edə bilirik. Bu baxımından mineral baxımından zəngin, orqanizmin maye ehtyacını qarşılaya bilən bol miqdarda ev üsulu qatıq da yeyə bilərik".





**Fəlsəfə doktoru Hacı İbrahim Quliyev:** "Ramazan xeyir-bərəkət ayıdır. Bu ayda Uca Allahın məğfirətini qazanmaq və çoxlu savab əldə etmək üçün yaxşı olar ki, müsəlmanlar bəzi dini göstərişlərə əməl etsinlər. Şübhəsiz ki, qeyd edəcəyimiz əməllər tövsiyə xarakteri daşıyır və hər kəs öz vaxtına, orqanizminə görə hərəkət etməli, özünün bədəninə nəyin xeyir, nəyin zərərli olduğunu müəyyənləşdirməlidir.

Dini mənbələrdən əldə etdiyimiz məlumata görə, iftar və ya imsak süfrəsinə oturan şəxs aşağıdakı göstərişlərə əməl etməsi ona savab qazandırar.

Birincisi, süfrəyə oturarkən dəstəmazlı olsun. Çünki dəstəmaz süfrənin bərəkətini artırar. İmam Əlidən nəql olunmuş bir hədisdə buyurulur: "Hər kim süfrəsinin bərəkətli olmasını istəyirsə, süfrəyə dəstəmaz alıb əyləşsin".

İkincisi, iftarı xurma və yaxud da su ilə açsın. Bunun səbəbi isə boş mədəyə bərk qidaların daxil edilməsi nəticəsində yarana biləcək fəsadların, ağrı-acının qarşısını almaqdır. Həmçinin su və xurma saflıq və bərəkət rəmzi hesab edildiyindən iftarın onlardan biri ilə açılması tövsiyə edilib. Necə ki, əziz Peyğəmbərimiz buyurmuşdur: "Biriniz orucu açacağı zaman xurma ilə açsın, çünki xurma bərəkətlidir. Əgər xurma tapa bilməsə, su ilə açsın, çünki su təmizləyicidir".



Üçüncüsü, sulu xörəklərdən istifadə etsin. Milli mətbəximizdə sup, bozbaş, borş kimi və yaxud da digər hər hansı sulu xörəklərdən istifadə edilməsi tövsiyə edilmişdir.

İmsaka durmaq vacib olmasa da, obaşdan qalxmaq çox tövsiyə edilmişdir. Bunun bir neçə səbəbi ola bilər.

Birincisi, obaşdanlığa qalxan şəxs dua və istiğfarla da məşğul olur ki, bu da ona savab qazandırır.

İkincisi, obaşdanlıq ramazan ayının səhər yeməyi hesab olunur və ailənin bir süfrə başına toplanması islamda qida mədəniyyətinin yaşanmasına səbəb olur.

Obaşdanlığa qalxan şəxslərə isə tövsiyə bundan ibarətdir ki, ağartı məhsullarından, məsələn, süddən istifadə etsinlər. Doğrudur, süd bəzən susuzluq yaradır. Amma onun tərkibi D vitamini və kalsiumdan ibarət olduğu üçün tövsiyə edilmişdir. Çünki bir aylıq orucluq müddətində insanın bədənində maddələrin azalması baş verə bilər. Bundan başqa qatıq yeməyin də çox faydaları vardır. Çünki qatığın tərkibi C və B12 vitamini, habelə kalsium, natrium, manqan və digər meneralarla zəngin olduğundan bir çox faydaları vardır".

**Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova:** "Ümumiyyətlə, Ramazan ayında qidalanmada insanı əsasən tox tutacaq, sağlamlığına fayda edəcək qidaları qəbul etmək daha düzgündür. Bu kimi qidalara ilk növbədə yumurta aiddir. Yumurtanı ya qaynadılmış, ya da az yağlı qayğanaq şəklində bişirmək olar. Mütləq şəkildə 1-2 dilim tam buğda unundan və ya kəpəkli undan bişmiş çörəyə üstünlük vermək lazımdır. Ağ çörəkdirsə bu zaman çörəyi qızardılmış şəkildə yesələr həm kalorisi, həm də həzmi rahat olar. Mütləq şəkildə pendir, 1-2 dilim şəklində yağ və eyni zamanda da çərəzlərə üstünlük vermək lazımdır. Çərəzlər də yaxşı olar ki, qoz, fındıq və badam olsun. Bunların hər üçünü birlikdə deyil, menyulara bölərək hər



gün fərqli-fərqli qəbul etmək lazımdır.

Sahur vaxtı mütləq şəkildə meyvə istifadəsi də tövsiyə olunur ki, buraya əsas banan daxildir. Çünki banan insanı gün ərzində daxil edir.

Həmçinin, maye miqdarına da diqqət edilməlidir. Əgər sağlam orqanizmdirsə, artıq çəki yoxdursa, hər kiloqram bədən çəkisinə görə 30 ml su lazımdır. Əks halda həm həzm sistemində pozulmalar baş verəcək, qəbizlik olacaq, maddələr mübadiləsi yavaşlayacaq və eyni zamanda gün ərzində yorğunluq, baş ağrısı olacaq.

Çay və kofedən mümkün qədər az istifadə etsinlər. İftarda isə orucu xurma və su ilə açsınlar. Daha sonra 15 dəqiqə ara verərək tək çeşidli şorbadan istifadə etsinlər. Şorbadan sonra isti yemək olaraq çox qarışdırmamaq şərti ilə bir növdə yeməklə qidalana bilərlər.

Həftəlik menyulara bölsək həftədə 2 dəfə ət, 2 dəfə quş və 2 dəfə də balıq əti olaraq qəbul edə bilərlər. Daha sonra isə ətin yanında mütləq şəkildə paxlalılar olmalıdır. Bunu da çeşidliliyi təmin etmək, vitamin qida dəyərini zənginləşdirmək üçün edirlər. Buraya bulqur, düyü, qarabaşaq, yaşıl lobya, yaşıl mərci ilə faydalandırsaq həm həzm sistemi yaxşı olacaq, həm də maddələr mübadiləsi sürətlənəcək.

Tərəvəzlər də vacibdir. Göyərtilər və kahı bu mövsüm üçün daha əlverişlidir. Kök də faydalıdır. Salatlarımıza əlavə etdiyimiz çuğundur həm faydalıdır, həm də uzun müddət tox tutur.

İlk növbədə "fast-food", mənşəyi bəlli olmayan qidalarda uzaq durmaq lazımdır. Bu gələcəkdə də problem yaradır və bir çox xəstəliklərə səbəb olur. Həddindən artıq qızardılmış və qaynadılmış yeməklərdən istifadə olunmasın. Bir iftarda fərqli heyvan ətləri yeyilməsin. Yeməkdən sonra isə 150 q şəklində qatıq qəbul edin. Qatıq da yaxşı olar ki, ev üsulu hazırlanan olsun. Çünki, mağazada satılan qatıqlar faydalı hesab olunmur".

***Ayşən Vəli***

# Rusiya mətbuatı: “Qarabağda nasizm əlaltısının abidəsi sökülməlidir”

***Təxminən bir aydan sonra bir çox post-sovet ölkələri kimi Azərbaycanda da faşizm üzərində qələbənin növbəti ildönümü qeyd olunacaq. Lakin sirr deyil ki, bu gün Ermənistanla yanaşı, Qarabağdakı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri ərazidə - Xocavənd şəhərində Hitler nökəri Qaregin Njdenin abidəsi qalmaqdadır. Maraqlıdır ki, 44 günlük müharibədən sonra (!) ucaldılan bu abidə hətta Rusiyada fəaliyyət göstərən müxtəlif çoxsaylı təşkilatlar, eləcə də ayrı-ayrı tanınmış şəxslər tərəfindən edilən müraciətlərə, tələblərə rəğmən, hələ də qalmaqda davam edir.***

SİA mövzunun aktuallığını nəzərə alaraq hələ ötən ilin mayında Rusiyanın bir sıra nüfuzlu siyasətçilərinin Njdenin abidəsinin sökülməsi ilə bağlı tələblərini növbəti dəfə xatırladır.

”Azərbaycan və Rusiya nasizm kollaboranisti Qaregin Njdenin Qarabağ ərazisində ucaldılmış abidəsinin demontaj edilməsi qərarını qəbul edib. Abidə 44 günlük müharibədən sonra Xocavənddə ucaldılıb. Şəhər Rusiya sülhməramlılarının məsul olunduqları ərazidə yerləşir. Qoy entuziazmsız olsun, ancaq rəsmi İrəvan da abidənin demontaj edilməsi üçün informasiya verib. Bu barədə hələ cari ilin 11 fevral tarixində Ermənistan parlamentinin keçirdiyi iclasında deputat Arman Babacanyan demişdi. Düzdür, fevralın 12-də Xocavəndin ”meri” (dırnaqlar bizimdir-R.R.) Edik Avanesyan abidənin sökülməsi ilə bağlı verilən informasiyanı təkzib etmişdi”.


Памятник Гарегину Нжде в Карабахе. Фото: minval.az

Азербайджан выступает совместно с Россией за снос памятника нацисту | Bigasia.ru

В Карабахе должен быть демонтирован памятник нацистскому пособнику.



Bu haqda BİGASİYA.RU (Böyük Asiya) telekanalı məlumat verib və məsələ ilə bağlı Valday klubunun siyasi eksperti, tanınmış politoloq Fərhad Məmmədova müraciət edib.

Politoloq Fərhad Məmmədov: ”Burada rusiyalı sülhməramlıların transparentliyi və prinsipiallıq nümayiş etdirməsi vacibdir”

Politoloq adıçəkilən telekanala müsahibəsində deyib ki, Azərbaycanda 9 may Qələbə Günü kimi qeyd edilir: ”Azərbaycan postsovet ölkəsidir. 600 min azərbaycanlı, eləcə də mənim babam Böyük Vətən müharibəsində iştirak edib. Onlardan 300 min nəfəri həlak olub. Bizim üçün 9 may müqəddəs tarixdir. Rusiya kimi, Azərbaycan da tarixə yenidən baxılmasının əleyhinədir. Respublikanın Prezidenti İlham Əliyev faşizmin qəhrəmanlaşdırılması mövzusuna qarşı barışmaz mövqe nümayiş etdirir və buna xüsusi diqqət göstərir. Qaregin Njde hələ SSRİ qanunlarına görə mühakimə olunmuşdu. Rusiyanın XİN-i və Müdafiə Nazirliyi kimi Azərbaycan da eynilə Njdeni faşist əlaltısı kimi tanıyır. Ona görə də Njdenin abidəsi Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Qarabağ ərazisindən sökülməlidir. Bununla yanaşı, bu ərazidə mənzillənmiş Rusiya sülhməramlılarının piyada hissələrinin Qələbə Günü münasibəti ilə nasistə ucaldılmış abidənin önündən rəsmi keçid etməsi mümkün deyil”.

Azərbaycanlı politoloq bildirib ki, burada rusiyalı sülhməramlıların transparentliyi və prinsipiallıq nümayiş etdirməsi vacibdir. ”Vacibdir ki, nasistə görə gözlərini yummasınlar və abidəni söksünlər!”, deyə Valday klubunun üzvünün sözlərini qeyd edən telekanal digər politoloq, Rusiyanın ”Milli müdafiə” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenkoya da mövzu ilə bağlı müraciət edib.

Politoloq və hərbi ekspert İqor Korotçenko: ”Axı bu özbaşınalıqdır!”

Azərbaycanlı həmkarı kimi Rusiya politoloqu da eyni prinsipial mövqeni bölüşüb və bildirib ki, Rusiya sülhməramlıları Qarabağda erməni əhalisinin təhlükəsizliyini təmin edir, ”dqr” separatçıları isə ”minnətdarlıqlarını” Qırmızı Ordunun arxa cəbhəsində Üçüncü Reyx üçün təxribatçılar hazırlamaqda kömək edən Hitlerçi kollaborant Njdeyə abidə ucaltmaqla bildirirlər. ”Axı bu özbaşınalıqdır!”, deyə Korotçenko deyib.

Məsələ ilə bağlı Rusiyanın ictimai-siyasi xadimləri - ”Rusiya zabitləri” Ekspertlər şurasının üzvü Aleksandr Perenciyev, Siyasi araşdırmalar institunun direktoru Yevgeni Mixaylov və digər bir çox ictimai və siyasi xadimlər faşizmin və nasizmin yenidən baş qaldırmasına qarşı sərt münasibətlərini bəyan ediblər.

Telekanal öz informasiyasında qeyd edir: ”İndi 9 may tarixinə qədər odioz abidənin sökülməsi vacib məsələyə çevrilib. Rusiyanın cavabdeh məmurları tərəfindən hələ ki, rəsmi reaksiyalar verilməyib”. BİGASİYA.RU sonda faşizm ideologiyasının erməni təmsilçisi Qaregin Njdenin qanlı əməlləri və cinayətləri haqqında məlumatları xatırladıb və onun Qarabağdakı abidəsinin sökülməsinin prinsip məsələsi olduğunu xüsusilə vurğulayıb.

*Rövşən RƏSULOV*

# Sanksiyalar Rusiyanı çökdürə bilir?



***"Ukraynaya qarşı müharibə səbəbi ilə Rusiyaya tətbiq olunan sanksiyalar indiyə qədər hər hansı ölkəyə qarşı tətbiq olunan sanksiyalardan qat-qat ağır sanksiyalardır və Rusiya iqtisadiyyatının ən vacib elementlərinə dağıdıcı təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov bildirib.***

Onun sözlərinə görə, ABŞ və Avropa İttifaqına üzv dövlətlərin fevralın 24-dən bəri tətbiq etdiyi sanksiyaların sayına görə Rusiya İran, Suriya və Şimali Koreyanı ötərək bu siyahıda lider olub: ”Hərbi sənaye, texnologiya sahəsi, bank sistemi, dollar və avronun Rusiyaya girişinə qadağalar, SWIFT sistemindən çıxarılma, demək olar ki, bütün iri xarici şirkətlərin Rusiyadan çıxması, Rusiyanın xaricdəki bütün aktivlərinin dondurulması, sanksiyalar tətbiq olunan ayrı-ayrı oliqarxların ABŞ və Avropadakı bank hesabları və əmlaklarına qoyulan həbslər, yeni neft və qaz müqavilələrinin bağlanılmasından imtina və s. çoxlu sayda sanksiyalar Rusiya iqtisadiyyatını faktiki olaraq iflic vəziyyətə salıb. Təkcə Avropa İttifaqı keçən bir ay ərzində 4 sanksiya paketi qəbul edib və yaxın günlərdə beşinci sanksiya paketi elan olunacaq. Bu paketdə də yeni adların sanksiyalar altına düşəcəyi və yeni-yeni sahələrə sanksiyalar tətbiq olunacağı şübhə doğurmur.

ABŞ dövlət katibi Entoni Blinkenin dediyi kimi ”ABŞ və Avropa İttifaqı Rusiyaya qarşı hər gün daha sərt sanksiyalar üzərində işləyir”. Rusiyanın bu sanksiyalara nə qədər tab gətirəcəyini söyləmək çətindir, amma sanksiyaların hələ yeni-yeni tətbiq olunduğunu nəzərə alsaq deyə bilərik ki, Rusiya sanksiyaların təsirini yaxın iki aydan sonra daha şiddətli şəkildə hiss edəcək. Təkcə bir ay ərzində Rusiyanın neft satışının 70% aşağı düşdüyünü, qaz satışında 21%-dən artıq geriləmə olduğunu nəzərə alsaq deyə bilərik ki, Rusiya üçün ağır günlər hələ qabaqdadır. Tətbiq olunan sanksiyalar fonunda problemlər hələ yeni başlayır. Təkcə istehsal sahəsini götürsək deyə bilərik ki, xaricdən gətirilən komplektləşdirici məhsullarla işləyən bütün müəssisələr zərər çəkəcək. Hələ ki, bütün fabrik, zavodların ehtiyatı var idi və onlar az da olsa istehsalı davam edirdilər. Lakin bu ehtiyatlar may ayına kimi tükənəcək və bunu Rusiya özü də etiraf edir. Sonra isə məcburi şəkildə kütləvi işsizlik meydana çıxıcaq. Bütün sadalananlar onu deməyə əsas verir ki, 2022-ci il Rusiya üçün çöküş ili olacaq və sanksiyaların təsirini kompensasiya etmək üçün yeni iqtisadi münasibətlərin yaradılmasının qısa vaxt ərzində mümkünsüzlüyü bu ölkəni defolt həddinə gətirib çıxaracaq”.

*Banuçiçək Hüseynli*

# Vladimir Jirinovski öldü

***Dövlət Dumasının spikeri Vyaçeslav Volodin LDPR lideri Vladimir Jirinovskinin vəfat etdiyini açıqlayıb. SİA xəbər verir ki, fevralın 2-dən siyasətçi koronavirus diaqnozu ilə xəstəxanaya yerləşdirildiyi Moskva Mərkəzi Klinik Xəstəxanasında müalicə alırdı. Dövlət Dumasının deputatları plenar iclasda Jirinovskinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Vyaçeslav Volodin LDPR liderini ”parlaq, istedadlı siyasətçi” adlandırıb. ”Dünyanın necə işlədiyini dərindən dərk edən və çox şeyi qabaqcadan görən bir insan. Dövlət Dumasında LDPR fraksiyasının lideri. O, həmişə işlərin sıxlığında idi. Onun şəxsiyyəti o qədər irimiqyaslıdır ki, müasir Rusiyanın siyasi sisteminin inkişaf tarixini onsuz təsəvvür etmək çətindir”, - spiker Teleqram-da yazıb.

# Cənubi Osetiya Rusiyaya birləşərsə...

**_Levan Pesvianidze: "Seçim qarşısında qalan Gürcüstanın neqativ reaksiyası olacaq: ya neytrallığın saxlanılması ilə münasibətlərin normallaşmasına doğru tədricən irəliləmək, Rusiyanın təsir dairəsinə və ittifaq dövlətinə daxil olmaq, ya da prinsip yaratmaqla Türkiyənin təsir dairəsinə düşmək"_**




Son günlər qonşu Gürcüstanın işğal altındakı ərazisi - separatçı Cənubi Osetiyanın Rusiyaya birləşməsi ilə bağlı qərarın verilməsi ətrafında informasiyalar yayılmaqdadır. SİA xəbər verir ki, artıq aprelin 10-da separatçı qurumda keçiriləcək qondarma prezident seçkilərinin ardınca saxta referendumun keçirilməsi planlaşdırılır və bu haqda müxtəlif KİV-lərdə məlumatlar mövcuddur.

Artıq Gürcüstanda sözügedən məsələ ilə bağlı siqnallar verilməkdədir və Sxinvalinin (Cənubi Odetiyanın paytaxtı) Rusiyanın protektoratı altına keçməsi ehtimalı ətrafında tanınmış gürcü ictimai-siyasi xadimi, "Antipropoqanda" ictimai hərəkatının lideri Levan Pesvianidze maraqlı fikirlərini bildirib.

"Bu məsələ Sxinvalidə deyil, hərdən Gürcüstanı qorxutmaq qərarını verən Moskvada həll olunur. Qoy qorxutsunlar - Sxinvali regionunun istənilən statusu Gürcüstan üçün faktiki heç nə dəyişmir, belə ki, ora istənilən halda bizim üçün işğal olunmuş hesab edilir", deyən gürcü ictimai-siyasi xadiminə görə, beynəlxalq ictimaiyyət də bu birləşməni heç vaxt tanımayacaq. SİTAT: "Əgər məsələnin daxili aspektlərindən danışsaq bu zaman həmin ərazinin Rusiyaya birləşməsi mümkünlüyü Gürcüstan müxalifəti üçün böyük hədiyyə olacaq. Bu müxalifət artıq dəfələrlə bəyan edir ki, hakimiyyətin "Kremli qıcıqlandırmamaq" siyasəti nəticəsiz qalıb".

Buradakı əsas məqsəd Krımın Qara dəniz regionuna nəzarət etməsi kimi, Zaqafqaziyanın da üzərində hərbi nəzarəti əldə etməkdən ibarətdir

Sxinvali regionunun Rusiyaya birləşdirilməsinin Kremlin hansı maraqlarına xidmət etməsi barədə də münasibətini bildirən Levan Pesvianidzeyə görə, buradakı əsas məqsəd Krımın Qara dəniz regionuna nəzarət etməsi kimi, Zaqafqaziyanın da üzərində hərbi nəzarəti əldə etməkdən ibarətdir. O, proqnozlarını daha konkret ifadə edib. SİTAT: "İstənilən anda və qısa müddətdə Azərbaycanla Türkiyə arasındakı tranziti kəsmək, Ermənistana dəhliz açmaq, Tbilisini/Gürcüstanı götürmək".




Gürcüstanlı hərəkat lideri əlavə edib ki, bunun üçün təkcə Zaqafqaziyanın xəritəsinə baxmaq kifayət edir - bu ərazi Qafqazın cənub dağ silsiləsidir - Rusiya ilə təbii sərhədə malikdir.

Gürcü hərəkat lideri Rusiyanın perspektivində Rusiya-İran nəqliyyat dəhlizini yaratmaq marağının olduğunu bildirib və həmin dəhlizin Türkiyə-Azərbaycan-Orta Asiya nəqliyyat yolunu kəsib-keçəcəyini iddia edib

"Yaxın vaxtlarda hərbi bazaların inşasını və ordu birləşmələrinin tez bir vəziyyətdə mövqelərə yerləşməsi imkanlarının artırılmasını, təhlükəsizliyini təmin edilməsini, "qalanın" yaradılmasını gözləmək olar", deyən Levan Pesvianidze onu da qeyd edib ki, Rusiya partnyor qonşularına təsir mexanizmi kimi müxtəlif vasitələrdən istifadə edir - tanınmayan respublikaların tanınması, yaxud Rusiyanın nüvə ölkəsi olduğunu xatırlatması.

Gürcü hərəkat lideri Rusiyanın perspektivində Rusiya-İran nəqliyyat dəhlizini yaratmaq marağının olduğunu bildirib və həmin dəhlizin Türkiyə-Azərbaycan-Orta Asiya nəqliyyat yolunu kəsib-keçəcəyini iddia edib.

"İşin bir tərəfi axını tanınmayan respublikadan keçirməkdən, digər tərəfi isə Rusiyanın ərazisinə salmaqda ibarətdir", deyə Pesvianidze bildirib. SİTAT: "Geosiyasi planda əgər birləşmə baş tutacaqsa onda bu, Rusiyanın özünün təsir dairəsində xarici dünyanın fikirlərini, maraqlarını inkar etmək məqsədini sübuta yetirəcək. Mental planda bu presedent olacaq - rusların kompakt yaşamadıqları və tarixi ərazisi olmadığı ərazi hər kəsə siqnal verəcək ki, biz nəyi özümüzünkü hesab ediriksə əhalinin etnik tərkibindən asılı olmayaraq onu götürəcəyik və sərhədlərin dəyişilməsinə əhəmiyyət verməyəcəyik".

Diqqət çəkən məqam osetinlərin Şimali Qafqazın yeganə pravoslav xalqı olması və birləşdirilməsidir

Gürcü hərəkat lideri bildirib ki, burada diqqət çəkən məqam osetinlərin Şimali Qafqazın yeganə pravoslav xalqı olması və birləşdirilməsidir. "Təbii ki, bunun ardınca seçim qarşısında qalan Gürcüstanın neqativ reaksiyası olacaq: neytrallığın saxlanılması ilə münasibətlərin normallaşmasına doğru tədricən irəliləmək, Rusiyanın təsir dairəsinə və ittifaq dövlətinə daxil olmaq, ya da prinsip yaratmaqla Türkiyənin təsir dairəsinə düşmək", deyə Levan Pesvianidze Cənubi Osetiyanın Rusiyaya birləşməsi ərəfəsində öz ehtimallarını ifadə edib.

***Rövşən RƏSULOV***

# "Əli Kərimlinin Azərbaycan dövlətçiliyi ilə heç bir əlaqəsi yoxdur"



***"Azərbaycan vətəndaşlarının sərbəst toplaşma azadlığı var. Yəni hər bir vətəndaş konstitusiyamızda göstərilən hüquqlara görə sərbəst toplaşa bilərlər. Lakin indiki zamanda buna ehtiyac varmı və bu aksiyalar hansı məqsədlə keçirilir, bu məsələ bir qədər qeyri-dəqiqdir". Bunu SİA-ya açıqlamasında AMİP funksioneri Əli Orucov deyib.***

Onun sözlərinə görə, hər zaman, harada ki Azərbaycanın maraqları və maraqlarında kövrək istiqamətləri olub, AXCP həmin istiqamətdə zərbələr endirməyə çalışıb: "Bu gün də hər kəsə məlumdur ki, Rusiyanın Ukraynada apardığı müharibəni bütün dünya pisləyir. Eyni zamanda, işğaldan azad edilən ərazilərimizdə hələ də Rusiya silahlıları qalır, onlar hansı statusdadır, bunun fərqi yoxdur. Dünya dövlətləri təkid edirlər ki, biz Rusiyaya qarşı duraq, vuruşaq və Rusiyaya qarşı həyata keçirilən sanksiyalarda iştirak edək. Biz müstəqil dövlətik, hesab edirəm ki, Azərbaycanın xarici siyasi kursu ölkənin dövlətçiliyinə və xalqın maraqlarına uyğun həyata keçirilməlidir. Doğrudur biz Ukrayna xalqının müharibəyə qarşı dirənişini dəstəkləyirik, amma bu heç də demək deyil ki, biz burda özümüzü Rusiya işğalına qarşıda qoyaq və özümüzə yeni bir problemlər yaradaq. Bu dünyanın yenidən bölüşdürməsi uğurunda gedən mübarizədir, savaşdır və böyük dövlətlərin, güclərin apardığı müharibələrdir. Azərbaycanı bu müharibələrə cəlb etməklə poliqona çevirmək doğru deyil və Əli Kərimli də bunu anlayırsa və anlayaraq da bu işə gedirsə deməli onun Azərbaycan xalqı və dövlətçiliyi ilə heç bir əlaqəsi yoxdur. Güman etmirəm ki, onun bu hərəkətləri hər hansı bir formada cəmiyyətə təsirini göstərəcək və effekt verəcək. Sadəcə olaraq, sözügedən şəxslər bununla ölkəmizin imicinə hər hansı bir formada zərbə endirmək istəyirlər. Bununla özlərini guya Qərbpərəst, eləcədə, Ukraynanın dostu kimi göstərmək istəyirlər. Amma bütün bunların hamısı saxtadır, öz maraqları üzərindən hesablanmış addımlardır".

***Gülyana***

# Vegeterian olmaq xəstəlikdir?

"Ümumiyyətlə bu gün veqan, vegeterian kimi ifadələr çoxalmaqdadır. Bu ifadələr insanlar arasında qidalanma üsulu və həyat tərzi kimi qəbul edilir". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.



Onun sözlərinə görə, bəzən olur ki, insanlar heyvani məhsullar yəni, süd, ət, hətta dəri geyimlərdən belə imtina edirlər: "Bəziləri isə tamamilə ətdən istifadəni dayandırır digərlərindən isə imtina etmirlər. Bu təbii ki, xəstəlik kimi qəbul olunmur, sadəcə olaraq insanların öz seçimləridir. Dünyaya baxış tərzi nəticəsində formalaşaraq, seçdikləri bir üsuldur. Bu tip insanlar vegeterianlar olaraq qəbul olunur. İlk növbədə sağlam qidalanma kimi görünsə də əslində insan yaşadığı iqlimdən, relyefdən asılı olaraq 8 yaşa qədər olan bir dövrdə orqanizmin formalaşması üçün müəyyən qidaları qəbul etməlidir. Bəzi qidalar var ki, bunlar artıq genetik olaraq formalaşır. Təbi ki, burada xüsusilə ət məhsullarını qeyd etmək lazımdır. Hansı ki, qanda dəmir məhz ət hesabına zənginləşir. Müəyyən yaşdan sonra əgər bundan tamamilə imtina edilirsə və təbii ki, gənc orqanizmdirsə, bu zaman o gənc güclü, enerji dolu dövründədirsə, orqanizm dərhal mənfi reaksiya vermir. Amma uzun müddət ətdən tamamilə imtina edilirsə, bu zaman artıq qan azlığına yol açır. Eyni zamanda saçların kəskin tökülməsi, dırnaqların zəifləməsi, dəridə quruluq kimi görünən əlamətlərlə yanaşı, eyni zamanda qaraciyərin funksiyasında da pozulmalara gətirib çıxarır.

Ümumiyyətlə, sağlamlıq üçün yaxşı olar ki, ilk orqanizm formalaşdığı dövrdən qəbul etdiyi faydalı, mənşəyi bilinən qidalardan imtina edilməsin. Amma kəskin şəkildə bu qidalardan imtina edəcəklərsə, bu zaman da bitki tərkibli, dəmirlə zəngin olan digər qidalardan istifadə edilməlidir. Buna misal olaraq saplaqları qırmızı olan, xüsusilə də çuğunduru rasiondan əskik etmək olmaz. Qoz, badam, fındıq kimi çərəzlərin tərkibində də ətdə olan vitaminlər, minerallar olduğu üçün onları da rasiona əlavə etmək lazımdır. Bunlar hər gün balanslı şəkildə olmalıdır. Çünki orqanizmin düzgün inkişaf etməsi, gündəlik həyati funksiyaların yerinə yetirməsi üçün hər bir insan hər gün 40-dan 70-ə qədər makro və mikro lementləri qəbul etməlidir. Bunlar qəbul olunmadıqda artıq insanlar özlərini pis hiss edəcək və müəyyən xəstəliklərə yol açacaq. Ümumiyyətlə, yaxşı olar ki, çox olmamaq şərtilə həftədə bir-iki dəfə ətdən istifadə edilsin".

***Səbinə Hüseynli***

***Aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan və Ermənistan liderləri İlham Əliyev və Nikol Paşinyan ilə növbəti görüşü başlayıb. Xatırladaq ki, Aİ-nin himayəsi altında keçən ilk yüksək səviyyəli danışıqlar raundu 2021-ci il dekabrın 14-də "Şərq Tərəfdaşlığı" sammiti ərəfəsində baş tutub. Rusiyalı ekspertlər sammitin nəticələrindən gözləntilərə dair fikirlərini "Caliber" analitik mərkəzinə bölüşüblər. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.***



# Rusiya ekspertləri: “Əsas məsələ Ermənistanı sülh sazişi imzalamağa məcbur etməkdir”

**Siyasi Tədqiqatlar İnstitutunun (RF) direktor müavini Darya Qrevtsova**nın sözlərinə görə, indi Avropanın Azərbaycan və Ermənistan arasında mübahisələrin həllində əsl vasitəçi olmaq üçün unikal şansı var.

”Məlumdur ki, Avropada, xüsusən də, Fransada ermənilərə fəal kömək edən, Türkiyəyə qarşı çıxan və anti-islam siyasəti yürüdən aktiv ermənipərəst əhval-ruhiyyə var. Bu vəziyyətdə Avropa İttifaqının neytral mövqe tutması çətindir. Bununla belə, Brüsselin mübahisəli məsələlərin həlli üçün Ermənistana təsir edəcəyinə ümid var. Söhbət ilk növbədə Qarabağdakı hərbi birləşmələrin Ermənistan tərəfindən tərksilah edilməsindən, ikincisi, hazırda Azərbaycan üçün çox vacib olan nəqliyyat kommunikasiyalarının blokunun açılmasından gedir.

Sərhədlərin demarkasiyası və delimitasiyası məsələsi çox mürəkkəbdir, çətindir, lakin həll edilməlidir. Və nə qədər tez həll olunarsa, sərhəddə hər hansı toqquşma və mübahisələr bir o qədər az olar. Və bütün bunların nəticəsi olaraq, Ermənistanı hərtərəfli sülh sazişi imzalamağa, Azərbaycanın ərazi bütövlüyünü və Qarabağın Azərbaycan ərazilərinin bir hissəsi kimi tanımağa məcbur etmək əsas məsələ olaraq qalır. Bütün bunlar Azərbaycan üçün və regionun inkişafı üçün çox vacibdir. Əgər Avropa bu məsələlərdə yardım etsə, təbii ki, bu, Brüssel üçün böyük irəliləyiş və diplomatik qələbə olacaq.

Düşünürəm ki, Avropa vasitəçiliyə maraq göstərir, çünki o, Rusiyanın sanksiyalar altında təsirinin azaldığını başa düşür. Üstəlik, Rusiyanın öz həll olunmamış problemləri var, ona görə də Avropa vasitəçiliyi öz əlinə almağa və Ermənistanla Azərbaycan arasında mövcud ziddiyyətlərin həllinə kömək etməyə hazırdır. Bu baxımdan, avropalı siyasətçilər başa düşürlər ki, hazırda çox şey onlardan asılıdır və Ermənistana necə təsir edə bilər. Aİ Ermənistanın tələb etdiyi kimi ATƏT-in Minsk qrupu formatında danışıqlara qayıtmağa töhfə verə bilər və çox güman ki, görüşdə bu məsələ qaldırılacaq. Amma başa düşmək lazımdır ki, burada çox şey qarşı tərəfin - Azərbaycanın istəyindən asılı olacaq. Eyni zamanda, heç kimə sirr deyil ki, mövcud olduğu 30 il ərzində bu beynəlxalq struktur diplomatik kanallarla aparılan danışıqlarda heç bir müsbət nəticə əldə edə bilməyib. Ona görə də indi bu formata qayıtmaq, məncə, perspektivsizdir.

Eynilə, Azərbaycan tərəfi ATƏT-in Minsk Qrupu üçün də alternativ variantlar təklif edə bilər. Azərbaycan başa düşür ki, bu təşkilatda erməni lobbiçilərinin sayı həddən artıq çoxdur və ola bilsin ki, bu səbəbdən bütün işğal dövründə aparılan danışıqlar istənilən nəticəni verməyib. Bu səbəbdən də Ermənistan tərəfi bu formatı bərpa etməkdə israrlıdır. Nəzərə alsaq ki, Azərbaycanın Brüsseldəki danışıqlarında istənilən problemi həll etmək üçün düzgün yol tapmağı bacaran müdrik lider dayanır, ATƏT-in Minsk qrupunun danışıqlar prosesinə qayıtması birbaşa Azərbaycanın istəyindən asılı olacaq”, - Dərya Qrevtsova bildirib.

Öz növbəsində, **IMEMO RAS-ın Postsovet Araşdırmaları Mərkəzinin baş elmi işçisi, tarix elmləri namizədi Stas Pritçin** hesab edir ki, əvvəlki yüksək səviyyəli görüşlər hələ ki, ciddi irəliləyişlərə səbəb olmayıb.

”Söhbət Avropa İttifaqının münaqişəni başa düşməməsində və ya bəzi görünən nəticələrə nail olmaq üçün diplomatik vasitələrin olmamasında deyil. Baxmayaraq ki, bu da haqlıdır, çünki Aİ-nin siyasi mərkəz kimi münaqişə ilə bağlı kifayət qədər dolayı ideyaları var ki, ortaq məxrəcə gəlmək çətin mümkün olsun. Ona görə də, prinsipcə, burada ciddi gözləntilər yoxdur. Lakin siyasi vəziyyət baxımından bunu təşəbbüsü ələ keçirmək və Rusiyanı danışıqlar prosesindən uzaqlaşdırmaq cəhdi kimi də qiymətləndirmək olar.

ATƏT-in Minsk qrupuna gəlincə, bu formatda olan bütün ölkələrdən yalnız Fransa Brüsseldə vasitəçilik edəcək. Bu, tamamilə fərqli qarşılıqlı fəaliyyət formasıdır və bu gün ATƏT-in Minsk Qrupu ölkələri arasında Qarabağla bağlı ciddi ziddiyyətlər olmasa da, danışıqlar üçün hansısa formada köhnəlmiş beynəlxalq strukturdan istifadə oluna biləcəyini təsəvvür etmək hələ də çətindir. Azərbaycanın passivliyinə görə ATƏT-in Minsk Qrupuna qarşı ciddi iddialar irəli sürdüyünü nəzərə alsaq, bu, xüsusilə şübhəlidir. İkinci Qarabağ müharibəsinin başa çatmasından il yarım keçir və ATƏT-in Minsk Qrupu yaranmış gərgin məqamların həlli ilə bağlı heç bir prosesdə iştirak etməyib. Yəni ATƏT-in Minsk Qrupu heç bir şəkildə özünü göstərmir.

Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə gəlincə, burada, prinsipcə, kompromis yanaşma tələb edən məsələlərdə ciddi yaxınlaşma yoxdur. Yəni Ermənistanın Azərbaycanın sərhədlərin açılması, nəqliyyat dəhlizlərinin işə salınması ilə bağlı təkliflərini nəzərdən keçirməyə hazır olduğuna dair siqnallar var, amma mənim anladığım qədər, delimitasiya ilə bağlı danışıqlar prosesi getmir və bu, ən əsasıdır. Sərhəddə razılaşmadan əslində münasibətlərdə hansısa dönüşün mümkün olduğunu söyləmək lazım deyil. Çünki münasibətlərdə hər zaman həll olunmamış sərhəd problemi üstünlük təşkil edəcək və kimin ərazisi, kimin bulağı, kimin yolu mübahisəsi istənilən razılaşmalara mənfi təsir göstərəcək. Buna görə də, ümumiyyətlə, sülh müqaviləsindən danışsaq, onun əsas sərhəd məsələsi üzrə razılaşma olmadan imzalana biləcəyini təsəvvür etmək mənim üçün çətindir”,- Stas Pritçin bildirib.

Eyni zamanda, Yeni Cəmiyyət İnstitutunun direktoru, politoloq Vasili Koltaşov Aİ-nin vasitəçilik səyləri ilə bağlı fərqli mövqe bildirib.

Onun sözlərinə görə, Aİ Ermənistanla Azərbaycan arasında gərginliyin dərəcəsini artırmaqda maraqlıdır ki, bu, Qafqazda vəziyyətin kəskin şəkildə gərginləşməsinə səbəb olsun.

”Bu, Brüssel, London və Vaşinqton üçün eyni dərəcədə vacibdir, çünki bu, Moskvaya diqqəti Ukraynadakı hərbi əməliyyatlar teatrından yayındırmağa və onu yenidən Ermənistan-Azərbaycan ziddiyyətlərinə diqqət yetirməyə məcbur etməyə imkan verir. Ona görə də indi Ermənistan üçün, eləcə də Azərbaycan üçün ən ağlabatan şey Avropanın vasitəçiliyindən bu şəkildə istifadə edərək yığılmış ziddiyyətləri düzəltməyə, hətta onları həll etməyə çalışmaq olardı. Çünki Qafqaz çox ciddi genişmiqyaslı münaqişə zonasına çevrilə bilər və bu, Ermənistanla Azərbaycan arasındakı münaqişədən xeyli kənara çıxacaq. İran, Rusiya, Türkiyəni bura çəkmək olar. Və bu, bütün mümkün variantlardan son dərəcə arzuolunmaz variantdır”, - Vasili Koltaşov bildirib.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



Səs
7 aprel
2022-ci il

# Rusiyalı professor: Bu vitamin qaraciyəri öldürür

***Vitaminlərin nəzarətsiz qəbulu sağlamlığa nəinki fayda vermir, hətta çox ciddi ziyan vura bilir. Bunu tanınmış rusiyalı endokrinoloq professor Ekaterina Krivtsova Veçernaya Moskva nəşrinə müsahibəsində bildirib. Həkimin sözlərinə görə, insanlar bir çox hallarda vitaminləri "profilaktika" üçün qəbul edirlər. Lakin bu çox böyük səhvdir.***

Həkimin sözlərinə görə, vitamin və vitamin kompleksləri yalnız həkim təyin etməlidir. Həmçinin bundan əvvəl xəstə tam müayinə olunmalı, lazım olan analizləri verməlidir.

Krivtsova onu da qeyd edib ki, bəzən vitamin komplekslərinin tərkibində olan vitaminlərin dozaları çox cüzi olduğundan orqanizmə ümumiyyətlə heç bir təsir etmir və onları "plasebo"nun (boş həb) təsiri ilə müqayisə etmək olar. Belə ki, professorun sözlərinə görə, 1 qr qədər dozada olan C vitamininin qəbulu heç bir effekt vermir.

Digər tərəfdən böyük dozalarda qəbul olunan vitaminlər orqanizmə çox ciddi ziyan vurur. Məsələn, D vitamininin nəzarətsiz qəbulu qaraciyəri öldürür, A və E vitaminlərinin böyük dozalarda qəbulu isə onkoloji xəstəliklərin inkişafına təkan verə bilər.

Saglamolun.az bildirir , ümumiyyətlə müasir təbabət süni vitamin və vitamin-mineral komplekslərindən yalnız istisna hallarda istifadə etməyi tövsiyə edir. Alimlərin fikrinə görə, bütün lazım olan maddələri qidadan almaq mümkündür. Hətta bunun üçün hər hansı bahalı, delikates qidaları qəbul etmək ehtiyac yoxdur. Adi gündəlik istifadə etdiyimiz məhsullar orqanizmi bütün lazım olan maddələrlə təmin edir.



D vitamininə gəldikdə isə digər vitaminlərdən fərqli olaraq bu vitamin gün şüalarının təsirindən bizim orqanizmdə sintez oluna bilir. Bunun üçün sadəcə gün ərzində ən azı 30 dəqiqə açıq havada olmaq lazımdır.

# 50 min dollarlıq qolbağın üzərində 10 simvol var



Məşhur xarici müğənni Rihanna körpəsinin nə vaxt doğulacağını açıqlamayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, körpənin may ayında doğulacağı iddia edilir.

İddiaya səbəb müğənniyə sevgilisi A$AP Rocky tərəfindən hədiyyə edilən bilərzikdir. 50 min dollarlıq qolbağın üzərində 10 simvol var. Zinət əşyalarının dizaynını həyata keçirən "Annoushka Fine Jevelry" şirkəti A$AP Rocky-nin hər simvolu mənalarına görə bir-bir seçdiyini açıqladı. Simvollardan biri may ayının doğum daşı olan zümrüd medalyondur.



**Ayşən Vəli**

# "Bu futbolçuya 300 milyon dollar vermək dəlilikdir!"




***"Liverpul" "Borussiya"nın hücumçusu Erlinq Haalandı transfer etməyəcək. Qol.az xəbər verir ki, bu haqda klubun baş məşqçisi Yurgen Klopp məlumat verib.***

"Biz hətta onu transfer etmək niyyətinə yaxınlaşmayacağıq da. Onun KİV-də yayımlanan transfer qiyməti sadəcə, dəlilikdir. Bu mənada, bizim bu transferdə heç bir şansımız yoxdur. Düzü, heç özüm də belə sövdələşmə istəmirəm. Bu, xoş deyil" - deyə Klopp "Bild" nəşrinə bildirib. Alman KİV-lərinin yaydığı xəbərə görə, Haalandın transfer qiyməti 300 milyon avro təşkil edir.

# DƏHŞƏT: Bakıda kişi əvvəlcə arvadını, sonra özünü öldürdü!

***Bakı şəhəri, Sabunçu rayonu Bakıxanov qəsəbəsində ölümlə nəticələnən hadisə baş verib. DİN Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, kişi yaşadığı ərazidə əvvəlcə arvadını odlu silahdan atəş açaraq qətlə yetirib.***



Daha sonra həmin silahla özünü öldürüb. Qonşuların bildirdiyinə görə, gənc ailənin azyaşlı tək övladı olub, o, hazırda məktəblidir.

# Azərbaycanda iki azyaşlı qidadan zəhərləndi: Biri öldü



***Qida zəhərlənməsi şübhəsi ilə Kliniki Tibbi Mərkəzə (KTM) yerləşdirilən iki azyaşlıdan birinin həyatını xilas etmək mümkün olmayıb. Mərkəzin Mətbuat xidmətindən verilən məlumatına görə, uşaqlar bu gün Saatlı Rayon Mərkəzi Xəstəxanasının göndərişi ilə KTM-ə gətirilib.***

Dəqiqləşdirilməmiş bakterial qida zəhərlənməsi diaqnozu ilə 12:45-də Mərkəzə yerləşdirilən uşaqlardan biri 2019-cu il təvəllüdlü X.F. 13:08-də vəfat edib. Digəri 2013-cü il təvəllüdlü M.F. reanimasiyaya yerləşdirilib, vəziyyəti ağır olaraq qalmaqdadır. Ehtimal olunur ki, uşaqlar pomidor turşusunun suyunu içiblər./oxu.az

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**